# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

14 aprel
2026-cı il,
çərşənbə axşamı
№ 062 (7129)
Qiymәti
60 qәpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Bölgənin rifahı naminə...



## Cənubi Qafqazda formalaşacaq yeni münasibətlər sistemi nələr vəd edir?

Bax səh. 2

## Sülh və sabitliyin təşəbbüskarı...

Bax səh. 3

## İqtisadi Şura tapşırıqlar verdi

Aprelin 10-da Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən İqtisadi Şuranın iclasında “Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi Qrup”u tərəfindən hazırlanan “Tikinti və kommunal infrastruktura qoşulma” və “Sənaye” sahələrində sahibkarların qaldırdığı aktual məsələlər və problemlər ətraflı müzakirə olunub. Tədbirdə çıxış edən aiddiyyatı dövlət qurumlarının nümayəndələri qeyd edilən məsələlərə dair görülən işlər və davam etdirilən tədbirlər haqqında məlumat veriblər. İştirakçıların rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan istiqamətlərin hər birinin həlli istiqamətində müvafiq normativ-hüquqi aktlara dəyişikliklər edilməsi üçün layihələrin hazırlanaraq hökumətə təqdim olunması barədə tapşırıqlar verilib.

İclasda əsas diqqət mərkəzində dayanan istiqamət biznes fəaliyyətinin daha da inkişaf etdirilməsi üçün əlavə tədbirlərin...

Bax səh. 3

## Strateji tərəfdaşlar müdafiə sahəsində əməkdaşlığı hədəfləyir



Bax səh. 4

## “Sülh Körpüsü” Qəbələdə...

Azərbaycanın 44 günlük Vətən müharibəsinin və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatının nəticələrinə uyğun olaraq yaratdığı reallıqlar onilliklər boyunca Ermənistanın işğalçılıq siyasətindən, müharibə təhdidlərindən əziyyət çəkən Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin təmin edilməsi, qarşıdurmaların əməkdaşlıqla əvəzlənməsi üçün münbit zəmin formalaşdırıb. Hazırda region heç vaxt olmadığı qədər sülhə yaxındır. Bu məqsədlə xüsusilə ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə əldə olunan mühüm razılaşmalara uyğun olaraq hər iki ölkədə dövlətlər və hökumətlər tərəfindən ardıcıl tədbirlər görülür. O cümlədən, Azərbaycanın və Ermənistanın vətəndaş cəmiyyəti təsisatlarının iştirakı ilə yaradılan “Sülh Körpüsü” platforması etimad quruculuğu prosesində fəal rol almağa başlayıb. Bu günlərdə tarixi şəhərimiz olan Qəbələdə “Sülh Körpüsü” formatında iki ölkənin vətəndaş cəmiyyəti...

Bax səh. 4

## Üç ayda 862 milyon dollar...

Bax səh. 5

## 16 illik hakimiyyətdən sonra...

Bax səh. 5

## İraqın 6-cı Prezidenti...

Bax səh. 7

## Yuvasını yandıran vulkan

Bax səh. 7




## Danışıqlar nəticə vermədi...

Bax səh. 6

# Bölgənin rifahı naminə...

## Cənubi Qafqazda formalaşacaq yeni münasibətlər sistemi nələr vəd edir?

Qlobal dünyada bir sıra geostrateji regionlar var ki, onlar hər zaman diqqət mərkəzindədir. Bu geostrateji regionlar dövlətlərin siyasi, iqtisadi və hərbi maraqlarının kəsişdiyi, uzlaşdığı, qlobal ticari imkanların paylaşıldığı əsas məkanlar kimi çıxış edir. Bu regionlar qlobal güc balansının formalaşmasında, enerji resurslarının bölüşdürülməsində və nəqliyyat-kommunikasiya xətlərinin idarə olunmasında mühüm rol oynayır. Bu amil xüsusilə XXI əsrdə ön plana çıxıb - qloballaşma şəraitində adıçəkilən bölgələr beynəlxalq siyasətdə təsir imkanlarını genişləndirmək perspektivi qazanıb. Məsələn, Yaxın və Orta Şərq, Avropa, Asiya-Sakit okean hövzəsi, Mərkəzi Asiya və digər mühüm məkanlar həm təbii ehtiyatların zənginliyi, həm də mühüm nəqliyyat dəhlizlərinin üzərində yerləşməsi ilə qlobal iqtisadi-siyasi, eyni zamanda, ticari üstünlükləri ilə strateji əhəmiyyətlərini ortaya qoyurlar.



### Qlobal strateji imkanlara malik regionların sırasında...

Cənubi Qafqaz da adıçəkilən siyahıda ön üstün yerlərdən birini tutur. Avropa ilə Asiya arasında yerləşən bu məkan mühüm təbii geosiyasi körpü rolunu oynayır. Regionun enerji resurslarının dünya bazarlarına çıxarılması, beynəlxalq nəqliyyat marşrutlarının inkişafı və təhlükəsizlik məsələləri baxımından xüsusi əhəmiyyətə malikdir. Son 30 illik tarixdə bu potensialdan tam şəkildə istifadə edilməyib - Ermənistanın təcavüzkar siyasət yürütməsi, Azərbaycan torpaqlarını işğal etməsi Cənubi Qafqazın iqtisadi ötürücülük imkanlarını müəyyən mənada məhdudlaşdırıb. Bəzən regionu "konfliktoloji məkan", bəzən "dondurulmuş münaqişə vəziyyətində olan bölgə" kimi xarakterizə edən aparıcı iqtisadi güc mərkəzləri Şərq-Qərb tranzit istiqamətində bu bölgənin potensialından istifadə etməkdən çəkinib.

Bütün bu manevrlərə baxmayaraq, Azərbaycan Cənubi Qafqazın strateji imkanlarının açılmasında, təbliğində və praktik fəaliyyətində açar rolunu oynayıb. Bölgənin həyatında əsaslı dəyişikliyə səbəb olan "Əsrin müqaviləsi" Cənubi Qafqazın enerji mübadilə mərkəzi kimi şöhrət qazanmasında ilkin qığılcım oldu: Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz xətti, Bakı-Tbilisi-Qars dəmiryolu xətti Cənubi Qafqazın iqtisadi-ticari potensialının ön plana çıxmasına şərait yaratdı. Diqqət yetirsək, XXI əsrin ilk 20 ilində Cənubi Qafqazın konfrantativ mahiyyətdən işgüzar, investisiya münbitliyinə malik, qlobal ticarətin mühüm stansiyalarından birinə çevrilməsi Azərbaycanın səyi, zəhməti, eləcə də Gürcüstan və Türkiyənin birgə əməkdaşlığının nəticəsi kimi meydana çıxıb. Ermənistanın qeyri-konstruktiv mövqeyi daha çox manevr xarakteri daşıyıb - işğal siyasətinin davam etdirilməsi, beynəlxalq hüququn ayaqlar altına alınması, regional təhlükəsizliyə təhdidlərin aradan qaldırılmasını özündə əks etdirən qətnamələrin yerinə yetirilməməsi ümumən Cənubi Qafqazın siyasi-iqtisadi mənzərəsinə mənfi təsir göstərib.

### Yeni münasibətlər sistemi...

2020-ci və 2023-cü illərdə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etməsi Cənubi Qafqazın da siyasi-iqtisadi xəritəsinə yeniliklər əlavə etdi, inkişaf üçün yeni bir mərhələ formalaşdırdı. Artıq regionda yeni təhlükəsizlik arxitekturası qurulub - Bakı Cənubi Qafqazın da dünyanın digər strateji regionları kimi özünün potensialını tam açması üçün şərait yaradıb. Sülh prosesinin uğurla inkişaf etdirilməsi, Vaşinqton razılaşmaları, bölgədə yeni münasibətlər sisteminin qurulması Cənubi Qafqaz üçün yeni üfüqlər müəyyənləşdirir. Artıq əməkdaşlığın müstəvisi və dairəsi də genişlənir: sadə bir misal - Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn Zəngəzur dəhlizi (TRIPP) regionu daha yüksək iqtisadi-ticari səviyyəyə yüksəldir. Bakının apardığı uğurlu siyasi xətt Cənubi Qafqazı yalnız Uzaq Şərq ilə Avropanın birləşdirici nöqtəsinə çevirmir- həm də, Mərkəzi Asiya ilə Qlobal Cənubu, Türk dünyasını, yeni nizamda yeni inkişaf xətti müəyyənləşdirmiş, iqtisadi güc mərkəzinə çevrilməyi hədəfləmiş dövlətləri Cənubi Qafqazda görüşdürür, uzlaşdırır, ticari tərəfdaşa çevirir.

### Azərbaycanın qətiyyəti, səyi və əldə olunan nəticələr...

Təbii ki, bütün bunlar nəticə etibarı ilə Cənubi Qafqaz regionu dövlətlərinə sürətli inkişaf tempi yaradacaq. Azərbaycan Prezidentinin apardığı siyasət Cənubi Qafqaz üçün yeni bir gələcək yaradır:

- Siyasi sabitlik və diplomatik balans - münaqişəsiz qonşuluq modeli;
- İqtisadi inteqrasiya - vahid ticarət və logistika məkanının formalaşması;
- Humanitar əməkdaşlıq - xalqlar arasında etimad və qarşılıqlı anlayış mühiti.

Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Gürcüstana dövlət səfəri zamanı bu fakt bir daha ön plana çıxdı. Gürcüstanın Baş naziri İrakli Kobaxidze mətbuata bəyanatında Prezident İlham Əliyevin səylərini yüksək qiymətləndirərək "Biz bu prosesdə Sizin şəxsi səylərinizi və iştirakınızı xüsusi dəyərləndiririk", deyə bildirdi. Bu, Bakının bölgənin rifahı naminə apardığı siyasətin ifadəsi kimi öz təsdiqini tapdı.



### Gürcüstan regional əməkdaşlığın inkişafına töhfə verməyə hazırdır

Yeni situasiyada Cənubi Qafqazın vahid ticari-iqtisadi mərkəz kimi çıxış etməsi labüddür. Azərbaycan və Gürcüstanın bu istiqamətdə mövqeyi aydındır - bu strateji əməkdaşlıq mühiti regionun təhlükəsizliyinin, sülhün və sabitliyin daha yüksək səviyyədə təminatının qarantı kimi çıxış edir. Azərbaycanın Ermənistana yük daşınmasına qoyduğu bloku qaldırması, neft məhsullarının ixracı və bu ixracın hələ ki, Gürcüstan üzərindən reallaşması həm rəsmi Bakının, həm də rəsmi Tbilisinin birgə əməkdaşlığın inkişafındakı marağını ortaya qoyur. Prezident İlham Əliyev Gürcüstanda mətbuata bəyanatında sülh prosesindən danışarkən bildirdi ki, bu prosesi gücləndirmək üçün, sadəcə olaraq, imzalanmış sənədlər yetərli deyil: "Biz hər an, hər addım atıldıqda gərək bu sülhü gücləndirək və bunun ən yaxşı istiqaməti də ticarətdir. Bu gün Azərbaycanla Ermənistan arasında ticarət Gürcüstan vasitəsilə həyata keçirilir".

Bu fikir bir daha Azərbaycan ilə Gürcüstanın Cənubi Qafqazın inkişafı naminə əməkdaşlığının bariz mənzərəsini canlandırır. Orta Dəhlizin genişləndirilməsi, ortaq layihələrin gerçəkləşdirilməsi, qlobal ticarətin əsas stansiyalarından birinə çevrilmə imkanlarından hərtərəfli istifadə olunması hər 3 dövlətin maraqlarının reallaşması deməkdir.

### Ermənistan üçün Bakı-Tbilisi nümunəsi...

Ermənistanın regional siyasətdə mahiyyət etibarı ilə yeni mərhələyə keçidi Cənubi Qafqazda sabitlik və əməkdaşlıq mənasında onun özü üçün də mühüm fürsət yaradır - qarşıdurma və təhdid ritorikası uzunmüddətli inkişaf üçün səmərəli yol deyil. Əksinə, qarşılıqlı etimad, açıq dialoq və iqtisadi əməkdaşlıq region ölkələri arasında münasibətlərin sağlam əsaslar üzərində qurulmasına xidmət edir. Bu baxımdan Ermənistan digər iki Cənubi Qafqaz dövləti arasında formalaşan praqmatik və işgüzar münasibət modelindən nəticə çıxarmalı, öz xarici siyasət kursunu daha konstruktiv istiqamətdə yenidən formalaşdırmalıdır. Prezident İlham Əliyev Tbilisidə mətbuata bəyanatında Azərbaycan ilə Gürcüstanın ikitərəfli münasibətlərini misal çəkərək bildirdi ki, "Bizim ikitərəfli gündəliyimiz çox genişdir və bu gündəlik getdikcə genişlənir. Yeni layihələr, yeni fikirlər ortaya atılır və birgə səylərlə biz bunları həll edirik. Bunun əsas şərti və amili, əlbəttə ki, bizim ikitərəfli münasibətlərimizdir. Bizim münasibətlər deyə bilərəm ki, bütün qonşular üçün nümunə ola bilər. Çünki onlar qarşılıqlı hörmət, qarşılıqlı inam, ortaq mənfəət, qarşılıqlı maraqlar, dostluq və qardaşlıq üzərində qurulubdur".

Beləliklə, regional layihələrdə iştirak, nəqliyyat-kommunikasiya xətlərinin açılması və iqtisadi inteqrasiyanın dərinləşdirilməsi Ermənistan üçün həm siyasi, həm də iqtisadi dividendlər vəd edir. Bunun üçün isə ilk növbədə etimad mühitinin yaradılması, revanşist yanaşmalardan imtina və beynəlxalq hüquq prinsiplərinə hörmət əsas şərt kimi çıxış edir. Səmimi və təhdiddən uzaq münasibətlər sistemi bütövlükdə Cənubi Qafqazın gələcək rifahının təmin olunmasına xidmət edəcək.

### Regional etimad mühiti güclənməlidir...

Təbii ki, yenə də birinci şərt kimi bölgənin təhlükəsizliyi, regional təhdidlərin tam şəkildə aradan qaldırılması, qarşılıqlı etimadın gücləndirilməsi önə çıxır. Avrasiyanın mərkəzindən yaxın-uzaq coğrafiyaya "boylandığımız" zaman şahidi olduğumuz konfrantasiyalar, qarşıdurmalar, münaqişələr tək siyasi nəticələr yaratmır - paralel olaraq iqtisadi geriləməni, ticari təhdidi də özündə əks etdirir. Bu isə bütövlükdə yaşama, rifaha və işıqlı gələcəyə təhdiddir. Prezident İlham Əliyevin Gürcüstanda bildirdiyi kimi, "Bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir. Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir".

Regional təhlükəsizliyin mövcud yeni konfiqurasiyia üzərindən davamlı şəkil alması üçün isə mütləq şəkildə sülhün imzalanması gerçəkləşməlidir. Ermənistanın əbədi sülhə imza atması Cənubi Qafqazın 30 il pərdə arxasında qalmış, tam açılmamış potensialını üzə çıxaracaq. Azərbaycanın uzun illər ərzində, böyük zəhmət bahasına və ən kiçik detallara qədər zərgər dəqiqliyi ilə işlədiyi xarici siyasət kursu demək olar ki, bütün aşılası mərhələləri, çətinlikləri geridə qoyub:

- Ermənistan əbədi sülhə imza atacağı təqdirdə Mərkəzi Asiya və Şərq kontingenti ilə rahat ticari əlaqələr qura biləcək;
- Türkiyə üzərindən Avropa ilə əlaqələrini möhkəmləndirəcək;
- Bakının ən yaxın strateji tərəfdaşlarından olan Körfəz ölkələri ilə münasibətlərini yeni bir müstəviyə qaldıracaq;
- Qlobal Cənub istiqamətində ticari-iqtisadi imkanlarını genişləndirəcək.

Beləliklə, Azərbaycanın yaratdığı şərait Ermənistan üçün yeni inkişaf strategiyası vəd edir. Yeni mərhələdə İrəvanın əsas hədəfi məhz sülh olmalıdır.

*Pərviz SADAYOĞLU*

# Sülh və sabitliyin təşəbbüskarı...

## Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyəti bərpa olunub

Aprelin 12-də Azərbaycanın İran İslam Respublikasındakı səfirliyi öz fəaliyyətini bərpa edib. Bu barədə Xarici İşlər Nazirliyindən (XİN) məlumat verilib.

Bildirilib ki, səfirlik ilkin mərhələdə səfir daxil olmaqla, məhdud sayda diplomatik və inzibati heyət ilə fəaliyyət göstərəcək.

Təhlükəsizlik və təşkilati məsələlər nəzərə alınaraq, səfirliyin fəaliyyətinin mərhələli şəkildə tənzimlənməsi planlaşdırılır.

### Təhlükəsizlik məqsədilə həyata keçirilən təxliyə prosesi

Fevralın 28-dən başlayan müharibə dost və qonşu ölkə olan İranda gərgin vəziyyət yaradıb. Hücumlar nəticəsində bu ölkənin hərbi obyektləri ilə yanaşı, ayrı-ayrı şəhərlərində mülki infrastruktura da ciddi ziyan dəyib. Müharibə şəraitində İrandakı diplomatik korpusun normal fəaliyyəti də, əslində, mümkünsüz hala gəlmişdi. Bu səbəbdən də xarici dövlətlərin İrandakı səfirlikləri və digər diplomatik missiyaları fəaliyyətlərini müvəqqəti qaydada dayandırmağa qərar veriblər. O cümlədən Azərbaycanın Tehrandakı səfirliyinin əməkdaşları da mərhələli şəkildə İrandan təxliyə olunublar. Onların təxliyəsi “Astara” dövlət sərhədindən buraxılış məntəqəsi vasitəsilə təhlükəsiz şəkildə həyata keçirilib. Bütövlükdə, təhlükəsizlik məqsədilə İrandan 612 nəfər Azərbaycan vətəndaşının təxliyəsi həyata keçirilib.



Azərbaycan həmçinin xoş məramdan çıxış etməklə digər ölkələrin vətəndaşlarının da İrandan təxliyə edilməsinə şərait yaradıb. Fevralın 28-dən İrandan respublikamız vasitəsilə təxliyə olunanlar arasında 735 Çin, 374 Rusiya, 198 Banqladeş, 284 Hindistan, 192 Tacikistan, 151 Pakistan, 84 Oman, 68 İndoneziya, 61 İran, 57 Əlcəzair, 46 İtaliya, 26 İspaniya, 27 Kanada, 27 Almaniya, 25 Fransa, 21 Gürcüstan, 18 Səudiyyə Ərəbistanı, 18 Yaponiya, 17 Özbəkistan, 17 ABŞ, 16 Bəhreyn, 14 İsveçrə, 14 Polşa, 13 Nigeriya, 13 Belarus,13 Qazaxıstan, 12 Macarıstan, 11 Meksika, 10 Böyük Britaniya, 10 Bolqarıstan, 10 Konqo Demokratik Respublikası, 9 Braziliya, 8 Sudan, 8 Venesuela 6 BƏƏ, 6 Finlandiya, 6 Slovakiya, 6 Belçika, 6 Qırğızıstan, 6 Rumıniya, 6 Avstraliya, 5 Türkiyə, 5 Finlandiya, 5 Serbiya, 5 Çexiya, 5 İsveç, 5 Əfqanıstan, 5 Avstraliya, 5 Avstriya, 5 Vyetnam, 5 Yunanıstan, 4 İordaniya, 4 Filippin, 4 Ukrayna, 4 Şrilanka, 4 Küveyt, 4 Niderland, 3 Qətər, 3 Xorvatiya, 3 Danimarka, 3 Norveç, 2 Nepal, 2 Livan, 2 Yəmən, 2 Kipr, 2 Myanma, 2 Misir, 2 Sloveniya, 2 Uruqvay vətəndaşı var. İrandan Azərbaycana həmçinin Tunis, Cənubi Afrika Respublikası, Maldiv adaları, Kuba, Vatikan, Argentina, Bosniya və Herseqovina, Latviya, Beliz və Dominikanın hərəsinin 1 vətəndaşı təxliyə olunub.

### Qonşu və dost İran ilə münasibətlərə verilən xüsusi önəmin bariz nümunəsi

Azərbaycan bir neçə gün bundan əvvəl ABŞ-la İran arasında elan olunan atəşkəsdən sonra qonşu Tehranda səfirliyinin fəaliyyətini bərpa edən ilk dövlətlər sırasında yer alır ki, bu da təsadüfi deyildir. Xarici İşlər Nazirliyinin məlumatında bildirilir ki, Azərbaycan səfirliyinin İranda hərbi əməliyyatların dayandırılması və 2 həftəlik atəşkəsin elan olunmasından qısa müddət sonra fəaliyyətini bərpa etməsi Azərbaycanın qonşu və dost İran ilə münasibətlərə verdiyi xüsusi önəmin bariz nümunəsidir.

Azərbaycanla İran arasında siyasi dialoqun dinamikası kifayət qədər yüksək səviyyədədir. Təkcə son vaxtlarda Azərbaycan və İran prezidentlərinin bir neçə dəfə telefon danışığı baş tutub. Bu təmaslarda liderlər tarixi ənənələrə əsaslanan ikitərəfli münasibətlərin, müxtəlif istiqamətləri əhatə edən əməkdaşlıq əlaqələrinin genişləndirilməsində maraqlı olduqlarını diqqətə çatdırıblar. Xatırladaq ki, Prezident İlham Əliyev İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar İranın Azərbaycandakı səfirliyinə gələrək başsağlığı verib.

Azərbaycan və İranın bir-birinə yaxınlığını, dostluğunu şərtləndirən bir sıra amillər sadalamaq mümkündür. Bu, ilk növbədə Azərbaycan və İran xalqlarının keçdikləri yoldakı oxşarlıqlarla bağlıdır. Tarixi əlaqələr, etiqad birliyi, mədəni köklər, milli-mənəvi dəyərlər, xalqların həyat tərzindəki oxşarlıqlar və bu kimi digər cəhətlər dostluğumuzun möhkəm və etibarlı olmasına, necə deyərlər, təbii təminatlar verir.

Digər tərəfdən, Azərbaycanla İranın coğrafi bağlılığı var. Respublikamızın ən uzun dövlət sərhədi 765 kilometr olmaqla məhz bu ölkə ilədir. Bu amil də iki ölkə arasında əlaqələrin qurulmasını asanlaşdırır, daşımalarda xərcləri azaldır, vaxtı qısaldır, təhlükəsizliyi təmin edir.

Eyni zamanda, son illərdə Azərbaycanla İranın ayrı-ayrı layihələrdə birgə iştirakı kifayət qədər uğurlu olub. İki ölkənin qarşılıqlı əlaqələrində, təbii ki, nəqliyyat layihələri xüsusi rol oynayır. Hazırda iki dost ölkə Şimal-Cənub Dəhlizinin funksionallığının artırılmasına böyük səy göstərir. O cümlədən indiyədək respublikamız bu marşrut üzrə öz ərazisində böyük infrastruktur layihələri həyata keçirib. Bakı Beynəlxalq Ticarət Limanının yükaşırma qabiliyyətinin artırılması ilə yanaşı, Ələt-Astara avtomobil yolu yenidən qurulub. İran Astarası ilə Azərbaycan Astarası arasında yeni dəmir yolu körpüsü tikilərək istifadəyə verilib, Astaraçay üzərində yeni avtomobil körpüsünün tikintisi artıq başa çatıb.

Ağbənd istiqamətində yeni avtomobil körpüsünün inşası əlaqələrin genişlənməsinə yeni impuls verəcək. Körpünün tikintisi artıq başa çatıb və sərhəd-gömrük infrastrukturunun inşası tamamlandıqdan sonra onun istismara verilməsi nəzərdə tutulur.

Hazırda Araz çayının cənub sahili boyunca yeni nəqliyyat infrastrukturunun yaradılması layihəsinin icrası da intensiv şəkildə davam etdirilir. Layihəyə uyğun olaraq Azərbaycanın əsas hissəsini İran ərazisi vasitəsilə Naxçıvan Muxtar Respublikasına birləşdirmək üçün Biləsuvar-Bazərqan magistral yolu çəkiləcək.

Bəhs olunan marşrut üzrə həmçinin İran ərazisindən keçməklə Şərqi Zəngəzurla Naxçıvan arasında yeni dəmir yolu xəttinin inşası nəzərdə tutulur. Bununla bağlı müvafiq sənədlər imzalanıb.

Həmçinin Azərbaycan dost ölkənin müharibə səbəbindən üzləşdiyi çətinliklərə biganə qalmır. İndiyədək respublikamızdan qonşu ölkəyə bir neçə dəfə humanitar yardım karvanı yola salınıb. Paralel şəkildə, respublikamız Rusiyadan İrana göndərilən humanitar yardımların ünvana çatdırılmasına imkan yaradır və bütün bunlar da dost ölkədə minnətdarlıqla qarşılanır.

### Sülh və sabitliyin təmin olunması istiqamətində irəli sürülən təşəbbüslərə dəstək

Azərbaycanın özü müharibə dəhşətlərini yaşayan bir ölkədir. İşğalın davam etdiyi otuz il ərzində respublikamız dəfələrlə ağır müharibə cinayətləri ilə üzləşib və sözün əsl mənasında humanitar fəlakət yaşayıb. Buna görə də Azərbaycan dövləti və xalqı müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq əzmi nümayiş etdirir.

Azərbaycan həmçinin regional və qlobal səviyyədə sülhün təmin olunmasının tərəfdarıdır. Hazırda dünyada yaranan vəziyyət ciddi narahatlıq doğurur.Şərqi Avropada beş ildir ki, Rusiya ilə Ukrayna arasında gedən müharibə səngimir. Qəzzadakı qətliamda təxminən 70 min insan həyatını itirdi. Bundan sonra isə Yaşın Şərq ABŞ-İsrail-İran müharibəsinin alovuna bürünüb. Bu dağıdıcı müharibədən bütün dünya təsirlənir. O cümlədən qlobal iqtisadiyyat ciddi təhdidlərlə üz-üzədir. Nəqliyyat-logistika zəncirinin pozulması davamlı təchizatı mümkünsüz hala gətirib, enerji daşıyıcılarının qiymətləri əhəmiyyətli dərəcədə artıb. Bütün bunlar son nəticədə istehlak bazarına, insanların həyat səviyyəsinə mənfi təsir göstərir.

Azərbaycan o mövqedən çıxış edir ki, dünyanı müharibə təhdidlərindən xilas etmək lazımdır. XİN-in məlumatında vurğulandığı kimi, ölkəmiz regionda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində irəli sürülən təşəbbüsləri dəstəklədiyini bir daha bəyan edir.

Yeri gəlmişkən, aprelin 8-də Azərbaycan Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib.

Dövlətimizin başçısı İran İslam Respublikası və Amerika Birləşmiş Ştatları arasında elan edilmiş atəşkəslə bağlı təbriklərini çatdırıb.

Məsud Pezeşkian bu təbriklərə və ölkəmizin İrana göstərdiyi humanitar yardıma görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

*Mübariz FEYİZLİ*

# İqtisadi Şura tapşırıqlar verdi

## Sahibkarlıq fəaliyyətinə maneələrin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması üçün qanunvericiliyə dəyişikliklər ediləcək



Aprelin 10-da Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən İqtisadi Şuranın iclasında “Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi Qrup”u tərəfindən hazırlanan “Tikinti və kommunal infrastruktura qoşulma” və “Sənaye” sahələrində sahibkarların qaldırdığı aktual məsələlər və problemlər ətraflı müzakirə olunub. Tədbirdə çıxış edən aiddiyyatı dövlət qurumlarının nümayəndələri qeyd edilən məsələlərə dair görülən işlər və davam etdirilən tədbirlər haqqında məlumat veriblər. İştirakçıların rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan istiqamətlərin hər birinin həlli istiqamətində müvafiq normativ-hüquqi aktlara dəyişikliklər edilməsi üçün layihələrin hazırlanaraq hökumətə təqdim olunması barədə tapşırıqlar verilib.

**Sahibkarların inzibati yükünün minimuma endirilməsi**

İclasda əsas diqqət mərkəzində dayanan istiqamət biznes fəaliyyətinin daha da inkişaf etdirilməsi üçün əlavə tədbirlərin görülməsi ilə bağlı olub. Bu, Azərbaycan hökumətinin sahibkarlığa olan xüsusi diqqətinin nümunəsi olmaqla yanaşı, Dünya Bankı qarşısında götürdüyü öhdəliklərin icrası istiqamətində atdığı prinsipial addımlara sadiqliyini göstərir. Hökumət sahibkarlıq sahəsində meydana çıxan çətinlikləri həll etmək üçün müxtəlif institusional qərarlar qəbul edib. Ötən ilin aprel ayında yaradılmış “Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi qrupu” isə bu istiqamıətdə daha kompleks və koordinasiyalı qərarlar qəbul etmək məqsədi daşıyır. İşçi qrupu sahibkarlıq fəaliyyətinə maneə yaradan, habelə qurumların səlahiyyətlərindən irəli gələn sui-istifadə hallarının müəyyən edilməsi və aradan qaldırılması, qanunvericilikdə olan boşluqlardan sahibkarların əleyhinə istifadə hallarının qarşısının alınması, iqtisadiyyatın müxtəlif sahələri üzrə sahibkarların üzləşdiyi problemlərin dərindən araşdırılması və təhlili, müvafiq təkliflərin hazırlanması ilə məşğul olur.

İqtisadi Şura adıçəkilən İşçi qrupu qarşısında sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim olunması tapşırığı qoyulub. Qurumun üzvlərinə biznes mühitinin yaxşılaşdırılması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, ölkənin iqtisadi inkişafında özəl sektorun payı və rolunun artırılması, sahibkarlıq subyektlərinin inzibati yükünün minimuma endirilməsi və onların biznes imkanlarının genişləndirilməsi, sahibkarlıq fəaliyyətinə maneə yaradan, habelə qurumların səlahiyyətlərindən irəli gələn sui-istifadə hallarının müəyyən edilməsi və aradan qaldırılması ilə bağlı müvafiq layihə və təkliflər hazırlamaq, onların icrasını təmin etmək tapşırılıb.

**Sənayedə inzibati yük, maliyyə resurslarına çıxış məhdudiyyəti mövcuddur**

“Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi qrupu”nun digər məqsəd prinsiplərinə dövlət qurumlarında daxili strukturlar tərəfindən icra olunan bir sıra layihələrin özəl sektora ötürülməsi, ödənişli dövlət xidmətlərinin təşkili və göstərilməsində özəl sektorun rolunun artırılması, müxtəlif sektorlar üzrə inzibati prosedurların tətbiqi funksionallığının və səmərəliliyinin yüksəldilməsi, çevik və səmərəli fəaliyyətin təşkilidir. İşçi qrupuna aid olan əsas sahələrdən biri - “Sənaye sahəsində sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması üzrə Altqrup”u bu baxımdan sahibkarlığın funksional imkanlarının artrılmasında ən mühüm istiqamətlərdən biri hesab edilir. Qeyd olunan sahə üzrə aparılmış monitorinqlər təsdiqləyir ki, sənaye sahəsində yüksək inzibati yüklər, qanunsuz müdaxilələr, maliyyə resurslarına məhdud çıxış və tənzimləyici çərçivədəki boşluqlar sahibkarlıq fəaliyyətinə mane olan əsas çətinliklərdir. Hələ də qalan bürokratik prosedurların mürəkkəbliyi və sui-istifadə halları biznesin inkişafını ləngidir, habelə qanunvericilikdəki uyğunsuzluqlar, lisenziyalaşdırma proseslərindəki çətinliklər sahibkarlara əlavə yük yaradır. İstehsal üçün zəruri olan xammal, maliyyə vəsaitlərinə çıxış və infrastruktur təminatında problemlər həll edilməyib. Ona görə də, bu istiqamət üzrə zəruri tənzimləyici vasitələrin tətbiqi, ələlxüsus da qanunvericilikdə dəyişikliklərin edilməsi olduqca aktualdır.

**Kommunal xidmətlərə əlçatanlığın təmin olunması**

İqtisadi Şuranın müzakirə etdiyi digər istiqamət “Tikinti və Kommunal İnfrastruktura Qoşulma üzrə Altqrup üzvləri” tərəfindən görülən işlərin vəziyyəti və bu sahədə hazırlanan institusional mexanizmlərin dəyərləndirilməsi ilə bağlı olub. Bu sahə üzrə islahatların aparılması da Dünya Bankı tərəfindən irəliyə sürülən tövsiyələrdən və islahat hədəflərindən biridir. Kommunal xidmətlər elektrik enerjisi, su və rəqəmsal əlaqə kimi vacib xidmətləri təmin etməklə iqtisadi və sosial inkişafı dəstəkləməkdə mühüm rol oynayır. Bu xidmətlər olmadan müəssisələr fəaliyyət göstərə bilməz və ev təsərrüfatları keyfiyyətli həyat sürə bilməz. Dünya Bankının biznes sorğularına görə, qlobal miqyasda müəssisələrin 30 faizindən çoxu elektrik təchizatını əməliyyatları üçün əsas məhdudiyyət kimi müəyyən edir. Elektrik təchizatındakı fasilələr firmanın məhsuldarlığına, gəlirlərinə və iqtisadi artıma zərər vurur. Eynilə, qeyri-kafi su təchizatı firma məhsuldarlığının azalmasına, mexanizmlərin sıradan çıxmasına və mənfəətin azalmasına səbəb olur. Eləcə də, əlverişli və etibarlı internetə çıxış rəqəmsal texnologiyaların istifadəsinin məhsuldarlığı artırdığı günümüzün rəqəmsallaşan dünyasında digər vacib elementdir.

Bu sahədə aparılan monitorinqlər göstərir ki, fiziki şəxslərin və biznes icmasının qarşılaşdıqları müxtəlif çətinliklər və problemlər hələ də qalmaqdadır. Həmçinin, tikinti sahəsində bir sıra xidmətlərə əlçatanlığın olmaması da biznesin əsas qayğılarından biridir. Məhz bu baxımdan həmin sahə üzrə islahatların davam etdirilməsi və kommunal xidmətlərə əlçatanlığın təmin olunması məqsədilə altqrup yaradılıb. Qrupa kommunal xidmət qaydalarının keyfiyyəti, kommunal xidmət göstəriciləri və xidmətlərin şəffaflığı, kommunal sahədə xidmətlərin həyata keçirilməsinin səmərəliliyi və təhlükəsizliyi üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində müvafiq qurumlarla birgə yeni təkliflər hazırlamaq tapşırığı verilib.

**Güclü biznes ölkənin sosial-iqtisadi inkişafını artırır**

Dövlət başçısı tərəfindən nümayiş etdirilən güclü siyasi iradəyə uyğun olaraq, ölkədə iqtisadi aktivliyin artırılması və insanların iş yerləri ilə təmin edilməsi iqtisadi siyasətin əsas prioritetidir və biznesə ən yüksək səviyyədə dəstək verilir. Biznes icmasının və sahibkarlıq assosiasiyasının üzvləri arasında aparılan sorğular göstərir ki, sahibkarlara yaradılan maneələr məqsədli dövlət proqramlarının icrasını gecikdirir. Ona görə də bu halların aradan qaldırılması üçün davamlı addımlar atılmalı, elektron xidmətlərin tətbiqi genişlənməli, rəqəmsal arxitekturaya keçid üçün daha əhatəli tədbirlər görülməlidir. Bu tədbirlərin hər birinin kompleks şəkildə həlli və biznes üçün daha əlçatan olması sahibkarlara asan və maneəsiz fəaliyyət motivasiyası verir, bu isə özəl sektorun aparıcı siması olan sahibkarlığın ölkəmizin sosial-iqtisadi inkişafında töhfələrini artırır.

Yuxarıda qeyd edilən bütün istiqamətlər üzrə son bir ildə İşçi qrupu tərəfindən bir çox təklif və təşəbbüslər hazırlanaraq müvafiq qurumlara təqdim edilib və bu istiqamətdə zəruri addımlar atılıb, ancaq bəzi strukturlarda biznesin fəaliyyətinə çətinlik yaradan texniki-hüquqi mexanizmlər həll olunmamış qalır. Bu baxımdan, İqtisadi Şuranın iclasında müzakirə olunan istiqamətlər üzrə növbəti addımların atılması sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılmasına, biznes mühitinin yaxşılaşdırılmasına, ümumilikdə, biznes sektorunda davamlı islahatların genişlənməsinə mühüm təkan verəcək.

*ELBRUS CƏFƏRLİ*

# Strateji tərəfdaşlar müdafiə sahəsində əməkdaşlığı hədəfləyir

## Çin ilə Azərbaycan arasında əlaqələr güclənir...





Müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq dövlətlərin strateji prioritetləri sırasında xüsusi yer tutur. Qlobal və regional təhlükəsizlik mühitinin sürətlə dəyişdiyi bir dövrdə ölkələr arasında qarşılıqlı etimada əsaslanan tərəfdaşlıqların qurulması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan ilə Çin arasında müdafiə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi hər iki dövlət üçün perspektivli və strateji əhəmiyyətli istiqamət kimi çıxış edir. Dünya siyasətinin mürəkkəb və sürətlə dəyişən mənzərəsində Azərbaycan-Çin münasibətləri xüsusi strateji çalarları ilə seçilir. Özündə müasir nizamın konturlarını əks etdirən bu tərəfdaşlıq müasir geosiyasi reallıqların əməkdaşlıq nümunəsinə çevrilib. Son illərdə qarşılıqlı münasibətlərin intensiv xarakter alması, siyasi iradənin iqtisadi, humanitar və texnoloji sahələrdə real nəticələrə çevrilməsi Azərbaycan-Çin əlaqələrinin çoxşaxəli və dayanıqlı inkişaf yolunda olduğunu göstərir.

Azərbaycanın geosiyasi mövqeyi, enerji təhlükəsizliyində rolu və regional sabitliyə verdiyi töhfə onu etibarlı tərəfdaş kimi ön plana çıxarır. Çin isə qlobal miqyasda iqtisadi və texnoloji gücünü artırmaqla yanaşı, beynəlxalq təhlükəsizlik məsələlərində də fəal iştirakını genişləndirir. Bu iki ölkə arasında müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsi yalnız ikitərəfli münasibətlərin dərinləşməsinə deyil, həm də regionda sülh və sabitliyin möhkəmlənməsinə xidmət edir. Hərbi-texniki əməkdaşlıq, təcrübə mübadiləsi, birgə təlimlər və təhlükəsizlik sahəsində dialoqun genişləndirilməsi bu tərəfdaşlığın əsas istiqamətlərini təşkil edə bilər. Belə əməkdaşlıq həm Azərbaycanın müdafiə qabiliyyətinin güclənməsinə, həm də Çinin regionda etibarlı tərəfdaşlıq şəbəkəsinin genişlənməsinə şərait yaradar.

**Çin - Azərbaycan əlaqələri yeni mərhələdə...**

Yeri gəlmişkən, ölkələr arasında hərbi sahədə əlaqələrin genişləndirilməsi məqsədilə bir neçə gün öncə Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti Çin Xalq Respublikasına səfər edib. Səfər çərçivəsində bu ölkənin Milli Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq Baş İdarəsində "Hərbi əməkdaşlıq sahəsində perspektivlərin müzakirə edilməsi üzrə işçi görüşü" keçirilib. Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti, inkişafı üçün mövcud olan potensial imkanlar və gələcək planlar barədə danışıqlar aparılıb, qarşılıqlı maraq doğuran bir sıra əməkdaşlıq istiqamətləri haqqında ətraflı fikir mübadiləsi aparılıb. Tərəflər ötən il üçün müəyyən edilmiş hərbi əməkdaşlıq planında nəzərdə tutulan fəaliyyətlərin icrasını müsbət qiymətləndirib və bu il planlaşdırılan tədbirlərin icrası məsələlərini müzakirə ediblər. Görüşdə, həmçinin Azərbaycanla Çin arasında hərbi əməkdaşlığın təcrübə və informasiya mübadiləsi baxımından faydalı olduğu vurğulanıb. Qeyd edək ki, işçi görüşün əsas məqsədi hər iki ölkənin müdafiə qurumları arasında mövcud əlaqələrin daha da möhkəmləndirilməsi və qarşılıqlı əməkdaşlığın genişləndirilməsidir.

**Strateji mahiyyət daşıyan ikitərəfli münasibətlər...**

Ümumiyyətlə, iki ölkə arasında son illərdə siyasi dialoq, tərəfdaşlıq əlaqələri genişlənir - üst-üstə düşən maraqlar, uzalaşan mövqelər yaxın təmaslar və xüsusilə də dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında liderlərin şəxsi münasibətləri mühüm rol oynayıb. İki ölkənin rəsmiləri arasında səfərlər intensivləşib, bütün sahələr üzrə danışıqlar və razılaşmalar dinamik xarakter alıb. Çinin Sədri Si Cinpin ikitərəfli münasibətlərin yüksək dinamika ilə inkişafında Azərbaycan Prezidentinin rolunu həmişə yüksək dəyərləndirib və cənab İlham Əliyevi Çinin böyük dostu adlandırıb. Xüsusilə 2024-cü ilin iyulunda və ötən ilin aprelində imzalanmış strateji əlaqələrin qurulması və inkişaf etdirilməsi ilə bağlı bəyannamələr ikitərəfli münasibətlərə yeni nəfəs, yeni şəkil qazandırıb. İmzalanan sənədlər, müzakirə edilən məsələlər, o cümlədən, proqnozlaşdırılan geniş əməkdaşlıq sferası mühüm bir regionda gələcək onilliklərin iqtisadi xəritəsini müəyyənləşdirir. Qeyd edək ki, ötən il aprelin Pekində imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın 10-cu maddəsində tərəflər terrorizmin, separatizmin və ekstremizmin milli təhlükəsizliyə və regional sabitliyə ciddi hədə olduğunu və bu bəlanın qarşısının alınmasının və ona qarşı birgə mübarizə aparılmasının vacib olduğunu vurğulayıblar və iki ölkənin hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri arasında əlaqələri və mübadilələri gücləndirmək, narkotik cinayətləri, transmilli mütəşəkkil cinayətkarlıqla, həmçinin kibertəhlükəsizlik kimi çağırışlarla birgə mübarizə aparmağın zəruriliyini ön plana çəkiblər. Paralel olaraq hər iki dövlət humanitar minatəmizləmə sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini vurğulayır, bu xüsusda Azərbaycan tərəfi Çin tərəfinin Azərbaycanın minatəmizləmə işinə dəstəyini yüksək qiymətləndirib, Çin tərəfi Azərbaycan tərəfinə maddi-texniki dəstək şəklində minatəmizləmə sahəsində potensialın möhkəmləndirilməsində bundan sonra da yardım göstərməyə hazır olduğunu bildirib.

**Müdafiə sahəsində əməkdaşlıq: potensial inkişaf hədəfləri**

Qeyd edək ki, Azərbaycan ilə Çin arasında hərbi müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlıq son illərdə mərhələli şəkildə inkişaf edən, daha çox perspektiv xarakteri daşıyan istiqamətlərdən biri sayılır. Azərbaycan və Çin müdafiə qurumları arasında əməkdaşlığın əsası 2000-ci illərdən etibarən qarşılıqlı səfərlərlə qoyulub. Xüsusilə, 2015-ci ildə Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Çinə səfəri zamanı hərbi əməkdaşlığın genişləndirilməsi müzakirə olunub. Eyni zamanda, Çin Xalq Azadlıq Ordusunun nümayəndə heyətləri də Azərbaycana səfərlər edərək hərbi təhsil, kadr hazırlığı və təcrübə mübadiləsi məsələlərini gündəmə gətiriblər. İki ölkə arasında müdafiə sahəsində əməkdaşlığa dair bir sıra çərçivə sazişləri və memorandumlar mövcuddur. Bunlar əsasən:

- hərbi-texniki əməkdaşlıq haqqında razılaşmalar;
- müdafiə sənayesi sahəsində əməkdaşlıq, niyyət protokolları;
- hərbi təhsil və kadr hazırlığı üzrə əməkdaşlıq sənədlərini əhatə edir.

Bu sənədlər konkret gələcək əməkdaşlıq üçün hüquqi baza rolunu oynayır. Vurğulayaq ki, Çin Azərbaycanın maraq göstərdiyi pilotsuz uçuş aparatları (PUA), radiolokasiya sistemləri və digər hərbi texnologiyalar sahəsində potensial tərəfdaşlardan biri sayılır. Azərbaycan müxtəlif beynəlxalq müdafiə sərgilərində Çin şirkətləri ilə yaxın əlaqələr qurub. Müdafiə sənayesi sahəsində birgə istehsal və texnologiya transferi məsələləri zaman-zaman müzakirə edilib. Dövlətlər arasında hərbi nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, zabitlərin təhsil proqramlarında iştirakı, beynəlxalq tədbirlərdə və forumlarda əməkdaşlıq kimi fəaliyyətlər həyata keçirilir. Beləliklə, müdafiə sahəsi üzrə əməkdaşlıq münasibətləri strateji dialoq və gələcək potensial üzərində qurulub. Hər iki ölkənin Avrasiyada artan geosiyasi rolu bu əməkdaşlığın gələcəkdə daha da dərinləşə biləcəyini göstərir.

**Nəqliyyat dəhlizlərinin təhlükəsizliyi...**

Müasir Çin - Azərbaycan əlaqələrinin komponentləri hazırkı dövrün siyasi-iqtisadi aktuallığı ilə yanaşı, həm də gələcək perspektivi də özündə cəmləyir. Vurğulamaq lazımdır ki, Orta Dəhlizin inkişafına xüsusi həssaslıqla yanaşan Çinin Azərbaycana münasibətdə strateji tərəfdaş kimi yanaşması ölkəmizə həm siyasi həm də iqtisadi üstünlüklər vəd edir. Nəzərə alaq ki, Çinin "Bir kəmər, bir yol" iqtisadi ideyasının real təcəssümlərindən olan Orta Dəhliz və Zəngəzur dəhlizi (TRİPP) həm də geostrateji səciyyə daşıyır - bu dəhliz Çin və Mərkəzi Asiya məhsullarının ən qısa marşrut vasitəsilə operativ və effektiv olaraq Avropaya daşınmasına imkan yaradır. Mərkəzi Asiyadan Avropaya qədər uzanan geosiyasi məkanda çoxvektorlu qarşılıqlı-faydalı əməkdaşlıq münasibətləri formalaşdırmaqda maraqlı olan Çin Azərbaycana yanaşmasını ortaya qoymaqla bu layihədəki tərəfdaşını dünyaya nümayiş etdirir.

Yeni dövrdə bu nəqliyyat dəhlizlərinin təhlükəsizliyi məsələsi də ön plandadır - qeyd edək ki, bu amil regional təhlükəsizlik arxitekturasının daha da möhkəmləndirilməsi istiqamətində real əməkdaşlığın aparıcı ştrixlərindəndir. Xatırladaq ki, 2024-cü il iyulun 3-də imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin ikinci maddəsinin dördüncü bəndində qeyd olunduğu kimi, dövlətlər öz ərazilərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin və fasiləsiz fəaliyyətinin təmin edilməsi məsələlərinin həllində bir-birinin səylərini dəstəkləyəcəyini, milli qanunvericilik və ikitərəfli sazişlər çərçivəsində tranzit daşımalar üçün əlverişli şərait yaradacaqlar.

*P.İSMAYILOV*

# "Sülh Körpüsü" Qəbələdə...

Azərbaycanın 44 günlük Vətən müharibəsinin və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatının nəticələrinə uyğun olaraq yaratdığı reallıqlar onilliklər boyunca Ermənistanın işğalçılıq siyasətindən, müharibə təhdidlərindən əziyyət çəkən Cənubi Qafqazda davamlı sülhün və təhlükəsizliyin təmin edilməsi, qarşıdurmaların əməkdaşlıqla əvəzlənməsi üçün münbit zəmin formalaşdırıb. Hazırda region heç vaxt olmadığı qədər sülhə yaxındır. Bu məqsədlə, xüsusilə ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə əldə olunan mühüm razılaşmalara uyğun olaraq hər iki ölkədə dövlətlər və hökumətlər tərəfindən ardıcıl tədbirlər görülür. O cümlədən, Azərbaycanın və Ermənistanın vətəndaş cəmiyyəti təsisatlarının iştirakı ilə yaradılan "Sülh Körpüsü" platforması etimad quruculuğu prosesində fəal rol almağa başlayıb. Bu günlərdə tarixi şəhərimiz olan Qəbələdə "Sülh Körpüsü" formatında iki ölkənin vətəndaş cəmiyyəti təsisatlarının nümayəndələrinin növbəti görüşü baş tutub.

## Sülh quruculuğu prosesində yeni mərhələ - xalq diplomatiyasının işə salınması

Bu gün regionda sülh quruculuğu prosesindən söhbət açılırsa, burada qalib Azərbaycanın həlledici rolunu xüsusi qeyd etmək lazımdır. Azərbaycan iki ölkə arasında uzun sürən münaqişənin əsas səbəbini kənardan dəstək almadan sırf öz gücünə aradan qaldırmağa nail oldu və dərhal da münasibətlərdə düşmənçiliyə son qoymaq istəyini - sülh təşəbbüsünü gündəmə gətirdi. Sonradan müxtəlif mərhələlərdən keçməklə, ayrı-ayrı platformalarda müzakirələri aparılmaqla Vaşinqton razılaşmalarınadək irəliləyən sülh prosesinin təməlində dayanan baza sənədi məhz Azərbaycanın müharibə başa çatandan dərhal sonra Ermənistana ünvanladığı 5 bənddən ibarət sülh paketi olub. Qalib Azərbaycan özünün həqiqətlərini, regionda yaratdığı reallıqları dünyaya qəbul etdirməyə nail oldu. Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə liderlərin verdiyi birgə Bəyanat, sülh sazişinin paraflanması bunun de-yure təsdiqlənməsidir.

Vaşinqton razılaşmasından sonra iki ölkə arasında xalq diplomatiyasının işə salınması sülhyaratma prosesində yeni mərhələdir. Sülh prosesi dövlətlər və liderlər tərəfindən irəli aparıldığı kimi, cəmiyyətlər də barışığa hazırlanır. Xalqlar arasında etimad quruculuğu davamlı sülh üçün vacib şərtdir. Dünyada uzanan müharibələr çox olub. Ancaq bu müharibələr nə qədər ağır fəsadlar versə də, zaman yaraların üstünü örtüb və dövlətlər, cəmiyyətlər, xalqlar arasında əlaqələr qurulub. Azərbaycan və Ermənistan eyni coğrafiyanı bölüşürlər. Bu iki dövlətdən birinin qonşuluq coğrafiyasını dəyişmək imkanı sıfıra bərabərdir. Vurulan yaralardan sonra barışıq mühiti yaratmaq çətin görünsə də, əbədi düşmənçilik də istisnadır. Bu mənada Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyətlərinin təmsilçilərinin görüşlərinin keçirilməsi nikbinlik doğurur.



## "Sülh Körpüsü" çərçivəsində dördüncü görüş

"Sülh Körpüsü" təşəbbüsü Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoqu və birbaşa əlaqələri təşviq edir. Bu dəfə Qəbələdə baş tutan görüşdə hər iki ölkədən qeyri-hökumət təşkilatlarının, media qurumlarının və beyin mərkəzlərinin nümayəndələri iştirak ediblər. Vurğulamaq yerinə düşər ki, vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoq 2025-ci il avqustun 8-də Vaşinqton şəhərində Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə keçirilmiş üçtərəfli sammitdə təsdiqlənmiş ikitərəfli sülh gündəliyi çərçivəsində aparılır. Qəbələ görüşünün gündəliyinə sülh prosesinin hazırkı vəziyyəti, "Sülh Körpüsü" təşəbbüsü iştirakçılarının öz ölkələrində həyata keçirdikləri fəaliyyətlər və əldə olunan nəticələr, həmçinin regiondakı vəziyyətin müzakirəsi daxil idi. Müzakirə sessiyaları isə cəmiyyət səviyyəsində sülhün təşviqi və sülh prosesinin növbəti mərhələlərində etimadın artırılması məsələlərinə həsr olunub.

Əlamətdar haldır ki, bu dəfə Ermənistan nümayəndə heyəti Azərbaycana quru sərhədi vasitəsilə daxil olub, delimitasiya və demarkasiya olunmuş sahədən keçərək bütün müvafiq sərhəd və pasport nəzarəti prosedurları icra edib. Bu keçid faktının özü "Sülh Körpüsü" təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistan cəmiyyətləri arasında etimadın möhkəmləndirilməsi istiqamətində növbəti simvolik addım olub.

İki gün ərzində 4 müzakirə sessiyası keçirilib. İştirakçılar Cənubi Qafqazda və onun ətrafında baş verən geosiyasi prosesləri və onların sülh prosesinə təsirini müzakirə ediblər. Azərbaycanlı və erməni ekspertlər, həmçinin regional inkişafla bağlı öz ölkələrinin mövqeləri və baxışları barədə fikir mübadiləsi aparıblar.

İkitərəfli dialoqdan əvvəl "Sülh Körpüsü" təşəbbüsünün nümayəndələri öz ölkələrində vətəndaş cəmiyyətinin müxtəlif seqmentləri ilə görüşlər və müzakirələr keçirərək ictimai gözləntiləri və sülh prosesinə dair yanaşmaları daha yaxşı anlamağa çalışıblar. Ayrı bir sessiyada təşəbbüs iştirakçıları bu görüşlərin nəticələrini təqdim edərək cəmiyyətlərdə mövcud əsas narahatlıqları, gözləntiləri və baxışları vurğulayıblar.

İctimai gözləntiləri nəzərə alaraq, iştirakçılar yekun sessiyanı sülh prosesinin növbəti mərhələlərində həyata keçiriləcək birgə və fərdi fəaliyyətlər barədə fikir mübadiləsinə həsr ediblər.

## Hökumətlər səviyyəsində dəstəklənən fərqli platforma

Qəbələ görüşü "Sülh Körpüsü " təşəbbüsünün artıq davamlı hal aldığını təsdiqləyir. Xatırladaq ki, bu çərçivədə ilk görüş ötən il oktyabrın 21-22-də İrəvanda baş tutub. Növbəti görüş 2025-ci il noyabrın 21-22-də Bakıda keçirilib.

Vətəndaş cəmiyyəti nümayəndələrinin son Qəbələ görüşü konstruktiv dialoq, açıq müzakirələr və sülh gündəliyinə alternativin olmadığına dair bir daha təsdiq mühitində keçirilib. Azərbaycan və Ermənistan hökumətlərinin dəstəyi ilə "Sülh Körpüsü" təşəbbüsü çərçivəsində təşkil olunan dialoqun iştirakçıları sülh prosesinin növbəti mərhələlərində etimadın möhkəmləndirilməsi istiqamətində birgə səyləri davam etdirmək niyyətlərini ifadə ediblər.

"Bu təşəbbüs çərçivəsində dördüncü görüş baş tutub, ilk səfərlər artıq həyata keçirilib. Həmin vaxt Azərbaycan vətəndaş cəmiyyətinin 5 nəfər nümayəndəsi Ermənistana, daha sonra isə Ermənistan vətəndaş cəmiyyətinin 5 nəfər nümayəndəsi Azərbaycana səfər etmişdi. Bu il isə daha geniş tərkibdə, təxminən 20 nəfər vətəndaş cəmiyyəti nümayəndəsi əvvəlcə Ermənistana, daha sonra isə Azərbaycana səfər edib".

Bu sözləri Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru Fərhad Məmmədov "Sülh Körpüsü" təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən ikitərəfli dəyirmi masa çərçivəsində baş tutan mətbuat konfransı zamanı deyib.

F.Məmmədovun fikrincə, "Sülh Körpüsü"nün digər platformalardan əsas fərqi ondan ibarətdir ki, əvvəllər də buna bənzər dialoq platformaları olsa da, onlar əsasən üçtərəfli formatda, yəni vasitəçi və ya donor təşkilatların təşəbbüsü ilə həyata keçirilirdi. Hazırda isə bu proses hökumətlərin dəstəyi ilə reallaşır və vətəndaş cəmiyyəti nümayəndələri də burada fəal iştirak edirlər.

## Qəbələ görüşü qarşılıqlı etimad quruculuğunda mühüm nailiyyətdir

"Sülh Körpüsü" təşəbbüsünün koordinatoru, Ermənistan Şurasının prezidenti Areq Koçinyan Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə Qəbələdə baş tutan görüşü qarşılıqlı etimad quruculuğunda mühüm nailiyyət kimi dəyərləndirib. "Sülh Körpüsü" təşəbbüsünün dördüncü görüşünün keçirilməsi mühüm nailiyyətdir. Biz yeni başlayanda - birinci və ikinci səfərlər zamanı - bu təşəbbüsün davam etdirilməsi və təsis edilməsi ehtimalı ilə bağlı çoxlu tənqid və şübhələr var idi. Hazırda dördüncü görüşün keçirilməsi və dayanmaq niyyətində olmamağımızın özü tənqidin əsassız olduğunu göstərir. Bununla yanaşı, təşəbbüs müəyyən bir normallaşma səviyyəsinə çatıb. Əlaqələrimiz, vaxtaşırı görüşlərimiz və cəmiyyətlərimizlə apardığımız "ev tapşırığı" tədricən adi bir hala çevrilir. Yaxın gələcək üçün bir sıra təşəbbüslər barədə razılığa gəlmişik. Bunlara məqalələr, tədqiqatlar və əməkdaşlığımızın əlavə məhsullarına çevriləcək birgə tədbirlər daxildir", - deyə Areq Koçinyan əlavə edib

*Mübariz ABDULLAYEV*

# Üç ayda 862 milyon dollar...

## Qeyri-neft-qaz ixracı 12 faizə yaxın artıb

2026-cı ilin yanvar-mart aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 11,7 faiz artaraq 862 milyon dollar təşkil edib. Bu dövrdə yeyinti məhsulları üzrə ixrac 25,1 faiz artaraq 281 milyon dollara bərabər olub. Birinci rübdə ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4,5 dəfə, pambıq iplik 2 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 68,4 faiz, pambıq lifi 43,5 faiz, meyvə-tərəvəz 22,1 faiz, alüminium və onlardan hazırlanan məmulatlar 20,4 faiz, çay 15,1 faiz, spirtli və spirtsiz içkilər isə 4,3 faiz artıb. Ümumilikdə, dövr ərzində aqrar məhsullar üzrə ixrac 26,6 faiz artaraq 215,6 milyon dollar, aqrar-sənaye məhsulları üzrə ixrac isə 27,4 faiz artaraq 88 milyon dollar təşkil edib. Toplam dəyər ifadəsi ilə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 26,8 faiz artaraq 303,7 milyon dollara bərabər olub.

**“Azərkosmos” ixrac potensialını artırır**

Qeyri-neft məhsullarının ixracında Rusiya Federasiyası ilk yeri tutur. Sonrakı yerlərdə Türkiyə, Gürcüstan, İsveçrə, Qazaxıstan və digər ölkələr dayanır. İxracda isə “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”, “Agrarco” MMC, “Prime Cotton” MMC, “Azərbaycan Şəkər İstehsalat Birliyi” MMC, “Baku Steel Company” QSC, “Prime Lm” MMC, , “P-Aqro” MMC, “Khan-El” MMC, “Mors Trading” MMC, “Stp Alüminium” əsas yer tutur. Həmçinin, qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına “AzerGold” QSC xüsusi yerə malikdir. Eləcə də “SOCAR POLYMER”, “Azəralüminium” MMC, Azərbaycan Respublikası “Azərpambıq” Aqrar Sənaye Kompleksi, “Socar Cape” MMC, “Sənayecihaz” EİM, “İstisu” Mineral Su Zavodu, Qaradağ Şüşə Zavodu da ixracatçıların reytinq siyahısında xüsusi paya malikdir.

Birinci rübdə Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) də ixracda payını artırıb. Şirkət 4 milyon dollardan çox telekommunikasiya xidməti ixrac edib. Peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində Birləşmiş Krallıq, Lüksemburq, İsveç, Türkiyə və Pakistan əsas yer tutur. Bu, yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malik olduğunu təsdiqləyir. Hazırda “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir şirkətin ümumi gəlirlərinin təxminən 65 faizini təşkil edir.







**“Azexport” - qeyri-neft ixracının elektron platforması...**

Azərbaycanın ixrac imkanlarının artmasında “Azexport” portalı da mühüm yer tutur. 10 il yaxındır ki, ölkəmizdə istehsal olunan malların vahid elektron məlumat bazası rolunu oynayan portal Azərbaycanda istehsal olunan rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların xarici bazarlarda təşviqinə dəstək verir. “Azexport”, həmçinin ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması üçün ixracatçı sahibkarlara nəqliyyat, logistika, ödəniş və sertifikatlaşdırma, sahəsində dəstək göstərir. “Azexport” artıq ixrac sektorunda tərəf kimi xarici ölkələrin biznes nümayəndələri ilə elektron ticarətin intensiv aparılmasını təmin edən çevik bir struktura çevrilib.

“Azexport” portalının qlobal rəqəmsal ticarət platformalarına inteqrasiyası ənənəvi bazarlardan fərqli yeni bazarlara çıxış imkanlarına da əlverişli mühiti təmin edib. Nəticədə, portal “Made in Azerbaijan” məhsullarının ixrac istiqamətlərinin genişləndirilməsində də böyük rol oynayan resursa çevrilib. “Made in Azerbaijan” brendi məhsullarının ixrac coğrafiyasını genişləndirmək və yerli istehsalçılara yeni potensial müştərilərin tapılmasında dəstək olmaq məqsədi ilə, daha bir neçə beynəlxalq elektron satış portalları ilə əməkdaşlığa başlanılıb. “Azexport” Azərbaycanda istehsal olunan məhsulların ixracını dəstəkləyən “Alibaba.com”, “eBay.com”, “Wholesale”, “Amazon”, “All.biz” kimi dünya elektron ticarət platformalarına inteqrasiya olunub və Azərbaycan məhsullarına beynəlxalq bazarlarda sərfəli potensial alıcı tapmaqda mühüm vasitəçiyə çevrilib.

**İxracatçıların xaricdəki məkanı - Ticarət Evləri**

Azərbaycanda qeyri-neft ixracının artmasında Ticarət Evlərinin də mühüm əhəmiyyəti var. Azərbaycan məhsullarının xarici bazarlara çıxarılması, satışının təşkili və əlaqələndirilməsində Ticarət Evlərinin imkanları kifayət qədər böyükdür. “Made in Azerbaijan” brendi altında qeyri-neft məhsullarının ixracının artırılması məqsədilə xaricdə Ticarət Evləri 2017-ci ildən yaradılmaqdadır. Azərbaycan ötən illərdə Rusiya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Ukrayna, Polşa, Latviya, Çin, Qazaxıstanda Azərbaycanın Ticarət Evləri fəaliyyət göstərir.

Ticarət Evləri Azərbaycan məhsullarının təkcə satışı və tanıdılması üçün əhəmiyyət daşımır, bu cür iqtisadi strukturlar həm də iki ölkə arasında faydalı iqtisadi müzakirələr üçün platforma rolunu oynayır, Azərbaycan ixracatçılarının potensial imkanlarını nümayiş etdirir. Son illərdə Azərbaycanla iqtisadi əlaqələri inkişaf etdirən Çində Azərbaycan Ticarət Evlərinin sayının artması da bunu təsdiqləyir. İndiyədək Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində Azərbaycanın Ticarət Evləri açılıb, eləcə də Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 Şərab Evinin fəaliyyəti təmin edilib.

Eləcə də Körfəz ölkələri ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafında yeni mərhələnin başlanması bu region ölkələrində də ixrac xəritəsinin coğrafiyasını genişləndirib və yeni Ticarət Evlərinin yaradılması işlərini sürətləndirib. Eyni zamanda, potensial ixrac bazarları ölkələrində logistika mərkəzlərinin yaradılması və Ticarət Evləri ilə fəaliyyətinin əlaqələndirilməsi istiqamətində görülən işlər də yeni ixrac bazarlarının təşkilində mühüm rol oynamaqdadır.

**“Milli ixrac strategiyası” - qeyri-neft ixracını hədəf xəritəsi**

Azərbaycanın qarşısında duran müasir iqtisadi çağırışlardan biri ixracyönümlü iqtisadiyyata keçidin təmin olunması, Avropa, Asiya və digər region ölkələri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağı tarifli mühitdə səmərəli gömrük prosedurlarının tətbiqi nəticəsində mövqeyinin gücləndirilməsidir. Bu məqsədlə ölkəmizin şaxələndirilmiş nəqliyyat-logistika imkanlarından və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə ixrac potensialının daha da yüksəldilməsi, transsərhəd ticarətin, o cümlədən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur.

Ortamüddətli dövrə dair strateji yol xəritələrinə əsasən, qeyri-neft sektoru üzrə ixracın hazırda adambaşına düşən həcminin 200 dollardan 450 dollara çatdırılması hədəflənib. Qeyri-neft ixracını illik 13-15 faiz artırmaqla həmin hədəfə çatmaq mümkündür. Həmin hədəflərə çatmaq üçün yeni sənəd- “Milli ixrac strategiyası” hazırlanıb. Sənəd 15-dən çox hədəf bazarını və 120 çeşid ixrac məhsulunu müəyyən edir.

Strategiyaya əsasən, Azərbaycanın qeyri-neft ixracını 2025-ci ilədək ötən illə müqayisədə iki dəfə artırmaq və 3,7 milyard dollara çatdırmaq planlaşdırılır. Sonrakı illərdə bu rəqəmin 5 milyarda qədər çatdırılması nəzərdə tutulur. Bu məqsədlərə çatmaq üçün xarici ölkələrə qeyri-neft məhsullarının ixracı ilə məşğul olan sahibkarların fəaliyyətinin daha da təşviq edilməsi, “Made in Azerbaijan” və “İnvest in Azerbaijan” ixrac portalları üzrə sifarişlərin daha qlobal ticarət şəbəkələrinə inteqrasiyasının təkmilləşdirilməsi planlaşdırılır. Eləcə də iri şirkətlərin və nüfuzlu investorların Azərbaycana gətirilməsi və qeyri-neft istehsalı sahələrinə, ələlxüsus da bərpa olunan enerji sahələrinə cəlbi məqsədilə yeni iqtisadi alətlərin tətbiqi strategiyanın əsas prioritetləri sırasında yer alır.

*E.CƏFƏRLİ*

# 16 illik hakimiyyətdən sonra...

## Viktor Orban seçkiləri uduzaraq iqtidarı “Tisza” partiyasına təhvil verir

Aprelin 12-də Macarıstanda keçirilən parlament seçkilərində Baş nazir Viktor Orbanın rəhbərlik etdiyi “FİDES” Partiyası məğlub olub.

Seçkilərdə 199 deputat yeri uğrunda mübarizə aparılıb. Onlardan 93-ü partiya siyahıları üzrə, 106-sı isə birmandatlı dairələr üzrə bölüşdürülüb. Hakim koalisiya - “FİDES - Macarıstan Vətəndaş İttifaqı” və onun kiçik tərəfdaşı olan Xristian-Demokrat Xalq Partiyası (XDXP) müxalif “Tisza” Partiyası ilə rəqabət aparıb. FİDES-ə Viktor Orban, “Tisza”ya isə keçmiş hökumət rəsmisi və Avropa Parlamentinin üzvü Peter Madyar rəhbərlik edir. Seçkilərdə seçici fəallığı rekord səviyyədə - 80 faizə yaxın olub ki, bu da ölkənin gələcək siyasi kursuna ictimai marağın mühüm olduğunu göstərir. Ekspertlər qeyd edirlər ki, belə yüksək seçici fəallığı bu səsvermənin Macarıstanın gələcək illərdəki istiqamətini müəyyən etməkdə strateji əhəmiyyətini ifadə edir. “Tisza” partiyası parlamentdəki 199 yerdən 138-ni qazanaraq təkbaşına hökumət qurmaq imkanı əldə edib.

İlkin nəticələrin açıqlanmasından sonra Viktor Orban partiyasının məğlubiyyətini etiraf edib. “Nəticə bizim üçün ağrılıdır, amma aydındır. İdarəetmə məsuliyyəti və imkanı bizə verilmədi. Qalibi təbrik edirəm”, - deyə Orban vurğulayıb.

### “FİDES”i “Tisza”ya dəyişən Peter Madyar kimdir?

Orbanın 16 illik hakimiyyətinə son qoyan Peter Madyar kimdir?

Parlament seçkilərində qalib gəlmiş “Sayğı və Azadlıq Partiyası”nın (Tisza) lideri Peter Madyar indi Avropada diqqətləri özünə çəkib. Peter Madyar uzun müddət dövlət idarəçiliyi və bizneslə əlaqəli strukturlarda çalışıb. O, dövlət şirkətlərində vəzifələr tutub və əvvəllər hakim “FİDES” partiyasında təmsil olunub. Peter Madyar 16 mart 1981-ci ildə Budapeştdə Macarıstan cəmiyyətinin elitası sayılan bir ailədə anadan olub. Onun babası Ereş Pal Macarıstan Ali Məhkəməsinin hakimi və 1970-80-ci illərdə ölkənin məşhur media siması idi. O, dövlət televiziyasında illərlə yayımlanan “Hüquqi işlər” proqramının aparıcısı olub. Real məhkəmə işlərini təhlil etməsi dövrün populyar mədəniyyətinə daxil olmuşdu, onu küçədə tanıyırdılar və ölkənin ən nüfuzlu hüquqşünaslarından biri hesab edirdilər.

Peter Madyarın xaç atası isə onun nənəsinin qardaşı, Budapeşt universitetlərindən birinin hüquq professoru Ferents Madl idi. O, sonradan “FİDES” partiyasına qoşulub və 2000-2005-ci illərdə Macarıstanın Prezidenti olub. Peter Madyarın valideynləri də hüquqşünas olub. Buna görə də onun universitetdə hüquq təhsili alması təəccüblü deyil. Universitetdən əvvəl Peter Madyar Budapeştin mərkəzində yerləşən elit Piarist katolik məktəbini bitirib. O, mətbuata verdiyi müsahibələrinin birində məhz burada ilk dəfə Viktor Orbanla qarşılaşdığını bildirib. Peter Madyar 12 il Viktor Orbanın “FİDES” partiyasının üzvü olub. Partiya 2010-cu ildə seçkiləri qazandıqdan sonra Madyar Xarici İşlər Nazirliyində vəzifə alıb. Növbəti il isə Macarıstanın Avropa İttifaqı yanındakı daimi nümayəndəliyinə keçib. 2019-2022-ci illərdə Orban onu öz hökumətində “tələbə təqaüdləri mərkəzinin” rəhbəri təyin edib. Madyarın ailəsi də konservativ, sağ-mərkəzçi olub, anası Monika Ereş Macarıstan Ali Məhkəməsinin sədr müavini vəzifəsini daşıyıb.

Madyarın keçmiş həyat yoldaşı Yudit Varga da Orbanın partiyasında çox önəmli şəxslərdən biri idi. 2018-ci ildə Orbanın hökumət aparatında Avropa İttifaqı məsələləri üzrə Dövlət Katibi, 2019-cu ildə isə Orbanın kabinetində Ədliyyə Naziri vəzifəsinə təyin edilib və 2023-cü ilə qədər bu vəzifəni daşıyıb. 2024-cü ildə isə xanım Varga Orbanın partiyasının Avropa Parlamentinə seçkilərdəki siyahısına başçılıq edib.



### Brüssel Macarıstanda hakimiyyət dəyişikliyindən məmnundur

Peter Madyar 2024-cü ildə “FİDE”ni tərk edərək “Tisza” partiyasına qoşulub. Formal olaraq Avropayönümlü olan bu partiya 2020-ci ilin oktyabrında yaradılıb, lakin əvvəlki parlament seçkilərində iştirak etməyib. Madyar, “FİDES” partiyasından ayrıldıqdan sonra siyasi elitanı və Viktor Orbanı tənqid edərək hakimiyyəti korrupsiyada və qohumbazlıqda ittiham edib.

Macarıstanda parlament seçkilərinin nəticələri beynəlxalq müstəvidə müxtəlif reaksiyalar doğurub. Məsələn, Brüssel Macarıstandakı parlament seçkilərinin nəticələrini müsbət qiymətləndirib. Avropa qurumları ölkənin yeni hökumətinin danışıqlarda Aİ ilə həmrəylik prizmasından daha konstruktiv mövqe tutacağına ümid edir. “Viktor Orbanın seçkilərdə məğlubiyyəti Brüsseldə rahatlıq və hətta bir az da olsa sevinc hissi yaradıb. Avropa rəsmiləri Macarıstanın yeni hökumətinin danışıqlar masasında Aİ ilə həmrəylik prizmasından daha konstruktiv mövqe tutacağına ümid edirlər”, - deyə CNN xəbər verir.

Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen isə bildirib: “Macarıstan Avropanı seçib. Avropa həmişə Macarıstanı seçib. Birlikdə daha güclüyük. Macarıstan Avropa yoluna geri qayıdır. Avropa İttifaqı daha da güclənir”. Avropa Parlamentinin sədri Roberta Metsola əlavə edib ki, Macarıstan “Avropanın ən mərkəzində yer tutur”. Fransa Prezidenti Emmanuel Makron da qeyd edib ki, qələbə macar xalqının Avropa İttifaqı dəyərlərinə və Macarıstanın Avropadakı roluna sadiqliyini nümayiş etdirir. Almaniya Kansleri Fridrix Merts isə güclü, təhlükəsiz və vahid Avropa naminə birgə səylərə çağırıb. Böyük Britaniyanın Baş naziri Kir Starmer seçkiləri təkcə Macarıstan deyil, həm də Avropa demokratiyası üçün tarixi an adlandırıb.

Polşanın Baş naziri Donald Tusk fikirlərini qısa şəkildə ifadə edib: “Macarıstan. Polşa. Avropa. Yenidən birlikdə!”. Slovakiyanın Baş naziri Robert Fitso da Peter Madyarı təbrik edərək, Macarıstan hökumətinin yeni başçısı ilə fəal əməkdaşlığa hazır olduğunu vurğulayıb. Fitso qeyd edib ki, Bratislava Budapeştlə dostluq və qarşılıqlı faydalı münasibətləri inkişaf etdirmək, hər iki ölkədə milli azlıqların vəziyyətinin yaxşılaşdırılması üzərində işləmək niyyətindədir. O, həmçinin Vışeqrad qrupu çərçivəsində əməkdaşlığın bərpasının və enerji təhlükəsizliyi sahəsində səylərin koordinasiyasının vacibliyini vurğulayıb.

### İlon Mask: Soros təşkilatı Macarıstanı ələ keçirib

Lakin amerikalı milyarder İlon Mask Macarıstanda hakimiyyət dəyişikliyindən məmnun qalmayıb. O, “X”-də maliyyəçinin oğlu Aleks Sorosun macar xalqının öz ölkələrini geri aldığı iddialarına cavab olaraq yazıb: “Soros təşkilatı Macarıstanı ələ keçirib”.

Bu arada, Peter Madyar Baş nazir kimi ilk xarici səfərinin Polşaya olacağını açıqlayıb. Bununla belə, o deyib ki, Macarıstanın yeni rəhbərliyi Rusiya ilə danışıqlar aparmalı olacaq, çünki ölkələrin coğrafi mövqeyi dəyişməyəcək və Budapeştin Rusiyanın enerji resurslarından asılılığı davam edəcək. Madyarın sözlərinə görə, ölkə vətəndaşları hökumətin “Ukrayna yönümlü” deyil, “Macarıstan yönümlü” olmasını istəyirlər. “Macar xalqının real problemlərini həll edən hökumətin formalaşması yaxşı olardı. Əlbəttə ki, bu baş verərsə, Rusiya Prezidenti Vladimir Putinlə danışıqlar masasına oturmalı olacağıq”, - deyən Peter Madyar, lazım gələrsə, Rusiya ilə danışıqlar aparacaqlarını, lakin Moskva ilə dost olmayacaqlarını vurğulayıb.

*Nardar BAYRAMLI*

# Danışıqlar nəticə vermədi...

## İslamabadda "pat" vəziyyəti

Hazırda dünyanın əsas diqqət mərkəzində olan Yaxın Şərq müharibəsinin yekunlaşmasını hədəfləyən 11 aprel danışıqları ürəkaçan nəticələrlə yekunlaşmadı. Qeyd edək ki, ABŞ və İran nümayəndə heyətləri arasında keçən 3 raundluq danışıqlar prosesində əsas detallar üzrə - Hörmüz boğazının açılması və atəşkəs şərtləri barədə fundamental razılıq əldə edilməyib. Xarici nəşrlərin yazdığına görə, İranın irəli sürdüyü "10 maddəlik sülh planı" və ABŞ-ın əsasında "qeyd-şərtsiz geri çəkilmə" tələbləri əks olunan 15 maddəlik sülh planı arasında kompromis əldə olunmayıb.

**Konsensus alınmadı...**

Yayılan məlumatlara görə, İslamabad danışıqları zamanı bir neçə məsələ xüsusilə diqqət mərkəzində olub. İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqayi bildirib ki, razılıq əldə olunmayan məsələlərə Hörmüz boğazına nəzarət, nüvə məsələləri, təzminatlar, sanksiyaların ləğvi və regiondakı münaqişəyə qəti son qoyulması daxildir. Bəqayi qeyd edib ki, danışıqların uğuru birbaşa Vaşinqtonun niyyətlərinin ciddiliyindən və maksimalist yanaşmanı və qanunsuz tələbləri rədd etməsindən asılıdır. Onun sözlərinə görə İran və ABŞ bir sıra məsələlərdə qarşılıqlı anlaşma əldə ediblər, lakin 2 və ya 3 vacib məsələdə fikir ayrılığı yaranıb və buna görə də razılıq əldə edilməyib. O, həmçinin bildirib ki, danışıqlar inamsızlıq şəraitində gedib və heç kim bir sessiyada razılığa gələnəcəyini də gözləmirdi.

**Vens: Biz kifayət qədər güzəştə getmişik**

ABŞ tərəfi də görüşün neqativ sonluqla nəticələndiyini bildirib. ABŞ-ın vitse-prezidenti C.D.Vens deyib ki, "İranlılarla bir sıra mənalı müzakirələr apardıq. Bu, yaxşı xəbərdir. Pis xəbər isə odur ki, biz razılığa gələ bilməmişik". Vens bildirib ki, ABŞ hələ İranın nüvə silahı proqramından imtina etmək istəyini görməyib: "Sadəcə olaraq, iranlıları şərtlərimizi qəbul etməyə vadar edə bilməmişik. Düşünürəm ki, kifayət qədər çevik olmuşuq. Biz kifayət qədər güzəştə getmişik. Prezident (ABŞ-ın Donald Tramp-red.) bizə dedi ki, biz buraya ən yaxşı niyyətlərlə gəlməli və razılaşma əldə etmək üçün əlimizdən gələni etməliyik. Biz bunu etdik, amma təəssüf ki, heç bir irəliləyiş əldə edə bilməmişik. Qırmızı xətlərimiz, onları nəyə razı salmağa hazır olduğumuz və nəyə razı salmadığımız barədə çox aydın şəkildə danışdıq və bunu mümkün qədər aydın şəkildə bildirdik. Və onlar şərtlərimizi qəbul etməməyi seçdilər".

Vens qeyd edib ki, ABŞ İrana son və ən əlverişli təklifini verdikdən sonra İslamabaddan ayrılır. Onun sözlərinə görə, bundan sonra qərar Tehranındır.

**Tramp Hörmüz boğazını blokadaya alır**

ABŞ Prezidenti Donald Tramp İslamabad danışıqlarına sosial media platforması "Truth Social"da iki paylaşımla münasibət bildirib. Həmin paylaşımlarda o, ABŞ-ın "Hörmüz boğazına girməyə və ya çıxmağa çalışan bütün gəmiləri blokadaya almağa" başlayacağını və "blokadanın tezliklə başlayacağını" bildirib. Tramp "müəyyən bir məqamda" boğazdan sərbəst naviqasiya ilə bağlı razılaşma əldə ediləcəyinə əmin idi - bildirib ki, "İran sadəcə "Orada bir yerdə mina ola bilər" deyərək bunun qarşısını aldı ki, bu minaların yerini onlardan başqa heç kim bilmir" deyib.

Tramp həmçinin yazıb ki, o, "ABŞ Hərbi Dəniz Qüvvələrinə beynəlxalq sularda İrana rüsum ödəmiş hər bir gəmini müəyyən etməyi və saxlamağı əmr edib" və ABŞ Hərbi Dəniz Qüvvələri "boğazda iranlılar tərəfindən qoyulmuş minaları məhv etməyə" başlayacaq. "İran Hörmüz boğazını açacağına söz verib, lakin bu vədi qəsdən yerinə yetirməyib", Tramp deyib. "Bu, dünyanın bir çox insanı və ölkəsi üçün narahatlıq, pozuntu və əzab yaradıb. Onlar söz verdiyindən, bu BEYNƏLXALQ SU YOLUNUN açılması prosesinə başlamalıdırlar və ən qısa zamanda!"

Tramp yazıb ki, "görüş yaxşı keçdi, əksər məqamlarda razılıq əldə edildi, lakin həqiqətən vacib olan bir məqamda - nüvə məsələsində razılıq əldə olunmadı". "Təxminən 20 saatlıq" danışıqlardan sonra "yalnız bir vacib məsələ ortaya çıxdı - İran nüvə ambisiyalarından güzəşt etməyə hazır deyil!"

Tramp onu da qeyd edib ki, "Bir çox cəhətdən razılaşdırılmış məqamlar hərbi əməliyyatlarımızı sona qədər davam etdirməkdən daha yaxşıdır, lakin bütün bu məqamlar nüvə enerjisinin bu cür qeyri-sabit, mürəkkəb və gözlənilməz insanların əlinə keçməsinə icazə verməklə müqayisədə əhəmiyyətsizdir".

Trampın paylaşımlarına cavab olaraq, İran İslam İnqilabı Keşikçiləri Korpusu İran təhlükəsizlik qüvvələrinin Hörmüz boğazına tam nəzarət etdiyini bildirib. Bəyanatda deyilir: "Düşmən səhv addım atsa, özünü boğazda ölümcül bir girdabda tapacaq".

ABŞ Prezidenti Donald Tramp İranın danışıqlar masasına qayıdıb-qayıtmamasından narahat olmadığını bildirib. O, bu barədə Endryus Hərbi Hava Qüvvələri Bazasına eniş etdikdən sonra jurnalistlərə danışıb: "Onların danışıqlar masasına qayıdıb-qayıtmamalarının mənim üçün fərqi yoxdur. Əgər qayıtmasalar, mənim üçün problem deyil".

Ağ Ev rəhbərinin sözlərinə görə, "İran çox pis vəziyyətdədir" və çarəsizdir.

**Əraqçi: Proses blokadaya salınıb**

İranın xarici işlər naziri Abbas Əraqçi da Vaşinqtonla danışıqların gedişi ilə bağlı sərt açıqlama verib. Nazir bildirib ki, son 47 ildə ən yüksək səviyyədə aparılan intensiv danışıqlar çərçivəsində İran ABŞ ilə müharibəyə son qoymaq üçün "xoş niyyətlə" masa arxasına əyləşib.

Əraqçinin sözlərinə görə, tərəflər artıq "İslamabad Anlaşma Memorandumu"nun imzalanması ərəfəsində olub. Lakin məhz bu mərhələdə ABŞ tərəfindən maksimalist tələblər irəli sürülüb, şərtlər davamlı dəyişdirilib və proses blokadaya salınıb.

Nazir vurğulayıb ki, bu vəziyyət Vaşinqtonun əvvəlki təcrübələrdən nəticə çıxarmadığını göstərir: "Xoş niyyət xoş niyyət doğurur, düşmənçilik isə düşmənçilik doğurur".

**Qalibaf: ABŞ İran xalqı qarşısında borcludur**

İran parlamentinin spikeri və Tehranın danışıqlar üzrə məsul komandasının rəhbəri Məhəmməd Baqir Qalibaf da ABŞ-a sərt xəbərdarlıq edib. O bildirib ki, Vaşinqton mövcud vəziyyətdən çıxış yolu axtarırsa, bunun yeganə yolu İran xalqının etimadını qazanmaqdır. Qalibafın sözlərinə görə, ABŞ İran xalqı qarşısında borcludur və bu günə qədər etdiklərini "kəffarə etməsi" üçün hələ çox iş görməlidir.

"Əgər siz müharibəni seçsəniz, biz döyüşəcəyik; əgər ağıl və məntiqlə gəlsəniz, biz də ağıl və məntiqlə cavab verəcəyik. Heç bir təhdid qarşısında geri çəkilməyəcəyik. Əgər onlar yenidən bizim iradəmizi sınamaq istəsələr, onlara daha ağır dərs verəcəyik", - deyə o vurğulayıb.

**ABŞ və İran razılıq əldə etmədi - ikinci raund olacaqmı?**

İran parlamentinin spikeri əlavə edib ki, təhdidlər İran xalqına heç bir təsir göstərmir. Onun sözlərinə görə, Tehran bunun sadəcə şüar olmadığını praktikada sübut edib və bütün dünya bunu öz gözləri ilə görüb.

Qalibaf həmçinin bildirib ki, İran xalqı 47 ildən artıq inqilab dövründə - istər döyüş meydanlarında, istər iqtisadi sanksiyalar, istərsə də siyasi təzyiqlər şəraitində - heç vaxt təhdid qarşısında geri çəkilmədiyini dəfələrlə nümayiş etdirib.

**İran Hörmüzü bağladı...**

Bu arada Hörmüz boğazı ilə bağlı yeni detallar məlum olub. İran Silahlı Qüvvələrinin "Xatəm əl-Ənbiya" mərkəzi qərargahının rəsmisi Hörmüz boğazı və körfəz sularındakı dəniz nəqliyyatı ilə bağlı dünya iqtisadiyyatını lərzəyə gətirəcək bəyanatla çıxış edib. İran komandanlığı Fars və Oman körfəzlərindəki limanların təhlükəsizliyinə dair "hamı və ya heç kim" prinsipini elan edib. Bəyanatda kəskin şəkildə vurğulanıb ki, düşmən dövlətlərlə əlaqəsi olan gəmilərin Hörmüz boğazından keçmək hüququ yoxdur və bundan sonra da olmayacaq. Bu, birbaşa ABŞ və onun hərbi müttəfiqlərinin tankerlərinə qarşı yönəlmiş qadağadır.

Yeni Ali Dini lider Müctəba Xameneinin nümayəndəsi Hakim İlahi isə bildirib ki, Amerika gəmiləri Fars körfəzini tərk etməlidir: "Onların mövcudluğu sabitliyə töhfə vermir və regional ölkələr gəmilərin təhlükəsizliyini özləri təmin edə bilərlər".

"Amerika gəmiləri niyə Fars körfəzindədir? Onlar orada nə edirlər? Onlar regionu tərk etməlidirlər. Biz bütün gəmilərin təhlükəsizliyini özümüz təmin edə bilərik", - "Times of India" qəzeti onun fikirlərini bölüşüb. H. İlahinin sözlərinə görə, Hörmüz boğazında vəziyyət ABŞ və İsrailin İrana qarşı təcavüzü səbəbindən gərgin olaraq qalır. "Biz boğazın açıq olmasını istəyirik, amma oradakı mövcud vəziyyət əlverişsizdir", - deyə o vurğuladı.

İlahi beynəlxalq ictimaiyyəti münaqişənin sona çatmasına kömək etməyə çağırıb. "Dünya liderlərindən və sülh və ədalət axtaran bütün millətlərdən birləşməyi və müharibəni dayandırmağı xahiş etməyə məcburuq. Müharibə olmazsa, böhran da olmayacaq", - deyə o bildirib.

**Qərb ABŞ-a qarşı - blokadaya qoşulmur...**

ABŞ isə İranın Hörmüzü bağlamasının ardından "blokada" yaradacağını bəyan edib. Bu isə bəzi Qərb dövlətləri tərəfindən qəbul edilməyib. Fransanın Xarici İşlər Nazirliyi nəzdində Avropa məsələləri üzrə nazir-nümayəndə Benjamin Haddad LCI telekanalının efirində ölkəsinin Yaxın Şərqdəki gərginliklə bağlı rəsmi və qəti mövqeyini açıqlayıb. Fransa ABŞ-ın Hörmüz boğazı ilə bağlı irəli sürdüyü hərbi təşəbbüsü dəstəkləməkdən imtina edib və Parisin bu məsələdə öz müstəqil yolunu seçdiyini bəyan edib. Benjamin Haddad vurğulayıb ki, Fransa Yaxın Şərqdə deskalasiya və danışıqlar yoluna üstünlük verir. Paris hesab edir ki, ilk növbədə İranın nüvə proqramı ilə bağlı diplomatik həll tapılmalı, yalnız bundan sonra naviqasiya azadlığı müzakirə olunmalıdır. Fransa rəsmisi qeyd edib ki, Hörmüz boğazında gəmilərin keçidinin təmin edilməsi hərbi əməliyyatlar çərçivəsində deyil, "müharibədən sonra" reallaşmalıdır.

Birləşmiş Krallıq da Hörmüz boğazının blokadası üçün hərbi gəmilər göndərməyəcəyini, lakin bölgəyə minatəmizləyən gəmilər yerləşdirəcəyini bəyan edib. Bildirilib ki, Böyük Britaniya Hörmüz boğazının ABŞ tərəfindən blokadaya alınmasında iştirak etməyəcək. Bu barədə "Sky News" məlumat yayıb. Britaniya hökumətinin sözçüsü bildirib ki, Hörmüz boğazından keçid üçün rüsum tətbiq olunması qəbuledilməzdir. O, həmçinin qeyd edib ki, rəsmi London gəmiçilik azadlığını qorumaq məqsədilə geniş koalisiya yaratmaq üçün Fransa və digər tərəfdaşlarla təcili şəkildə işləyir.

**Təmas davam edə bilər...**

Amma danışıqların davam edəcəyi də istisna olunmur. Belə ki, Vaşinqtonla Tehran arasında diplomatik prosesin davamı ilə bağlı yeni iddia gündəmə gəlib. "The Wall Street Journal" nəşrinin rəsmi mənbələrə istinadən yaydığı məlumata görə, ABŞ və İran arasında danışıqların ikinci raundu yaxın bir neçə gün ərzində baş tuta bilər. Məlumata əsasən, tərəflər arasında sərt bəyanatların səslənməsinə baxmayaraq, diplomatiya üçün imkan pəncərəsi hələ də açıq qalır. Qeyd edək ki, prosesdə vasitəçi qismində iştirak edən rəsmi İslamabad da Vaşinqton və Tehran arasındakı danışıqlar prosesi çərçivəsində vasitəçilik missiyasını bundan sonra da həyata keçirmək niyyətində olduğunu bəyan edib. Bu barədə Pakistan Xarici İşlər Nazirliyinin İslamabadda keçirilən ABŞ-İran danışıqlarının yekunlarına dair bəyanatında deyilir. Qeyd olunub ki, hər iki tərəfin atəşkəs rejimi ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirəcəyinə ümid edilir. "Ümid edirik ki, hər iki tərəf davamlı sülhə nail olmaq üçün müsbət məcrada fəaliyyət göstərməyə davam edəcək... Bütün tərəflərin atəşkəs üzrə öhdəliklərini yerinə yetirməsi son dərəcə vacibdir", - bəyanatda bildirilib.

Bundan əlavə, Pakistan tərəfi "qarşıdan gələn günlərdə İran İslam Respublikası və Amerika Birləşmiş Ştatları arasında dialoqa kömək göstərilməsində rol oynamağa davam etmək" istəyini təsdiqləyib.

"Axios" mənbələrə istinadən məlumat verib ki, Misir, Pakistan və Türkiyədən olan vasitəçilər, 21 aprelə, yəni atəşkəsin bitməsinə qədər fikir ayrılıqlarını həll etmək və sülh razılaşmasına nail olmaq üçün yaxın günlərdə ABŞ və İranla yeni danışıqlar mərhələsi təşkil etmək istəyirlər.

Məlumatı CBS də təsdiqləyib. Bildirilib ki, Pakistan İran və ABŞ-ı danışıqlar masasına qaytarmaq üçün diplomatik səylərini artırıb. CBS News bu məlumatı Pakistanın yüksək vəzifəli rəsmisinə istinadən yayıb. Rəsmi şəxsin sözlərinə görə, həftəsonu danışıqlarında irəliləyiş olmasa da, Pakistan hakimiyyəti iki tərəf arasında davamlı əməkdaşlığın perspektivlərinə nikbin yanaşır. Rəsmi həmçinin qeyd edib ki, İslamabad həm Vaşinqton, həm də Tehranla fəal şəkildə əlaqə saxlayır və onları ən qısa zamanda dialoqu bərpa etməyə çağırır. Əsas məqsəd atəşkəs bitməzdən əvvəl məqbul bir razılaşmaya nail olmaqdır. Hazırda danışıqların ikinci mərhələsini mümkün qədər tez təşkil etmək üçün səylər göstərilir. Məlumata görə, diplomatik təşəbbüslər Pakistanın Baş naziri Şahbaz Şərifin birbaşa göstərişi ilə həyata keçirilir.






**Livan-İsrail danışıqları başlayır...**

ABŞ-İran danışıqlarının neqativ abhavada keçməsi Livan -İsrail məsələsini də açıq saxlayır. Qeyd edək ki, aprelin 14-də ABŞ-ın himayəsi altında Vaşinqtonda Livan-İsrail danışıqlarının ilkin mərhələsi keçiriləcək və orada atəşkəs razılaşmasının əldə edilməsinə yönəlmiş sülh danışıqlarının başlama tarixi müəyyən ediləcək. Nümayəndə heyətlərinə Livan və İsrailin ABŞ-dakı səfirləri Nada Hammadeh-Movvad və Yexiel Layter rəhbərlik edəcək.

"Hizbullah" isə Livan və İsrail arasında qarşıdan gələn görüşdən müsbət nəticələr gözləmir. Hərəkatın siyasi şurasının sədr müavini Mahmud Kummati bunu "Vesti"yə verdiyi müsahibədə bildirib. O, vurğulayıb ki, hazırda "Livanda atəşkəsi təmin edən İrandır". "Biz (Livan və İsrail arasındakı görüşdən) Livanla bağlı müsbət nəticələr gözləmirik. Biz Livanla İsrail düşməni arasında birbaşa danışıqları qəti şəkildə rədd edirik. Biz onları qətiyyən qəbul etmirik", - Kummati əlavə edib.

Bu arada "Al-Monitor" mənbələrə istinadən məlumat yayıb ki, İsrail hakimiyyəti ABŞ-da Livanla keçiriləcək danışıqlar zamanı "Hizbullah" milislərini tərksilah etməkdə uğur qazana biləcəklərinə inanmır. İsrail Baş naziri Benyamin Netanyahu əvvəllər bildirib ki, 14 apreldə Livan tərəfi ilə danışıqlar zamanı yəhudi dövləti Hizbullahı təkcə cənub sərhəd bölgələrində deyil, həm də ölkə daxilində tərksilah etməyə çalışacaq. Lakin portalın İsrail Xarici İşlər Nazirliyindəki mənbələri qeyd edir ki, buna diplomatik dialoq yolu ilə nail olmaq praktik olaraq mümkün deyil.

"Al-Monitor"a görə, İsrail danışıqlar qrupu ABŞ-ın vasitəçiliyi ilə "Hizbullah"ı zəifləmtəyi, İsrail ərazilərinin atəşə tutulmasına son qoyulmasını hədəfləyib. İsrail Livan ordusunun hələ də "Hizbullah"ı tərksilah etmək üçün kifayət qədər güclü olmadığını bildirib. Portal qeyd edir ki, İsrail danışıqlar qrupunun rəhbəri, ölkənin ABŞ-dakı səfiri Yexiel Layterin ciddi diplomatik danışıqlarda təcrübəsi yoxdur. Dialoqun birinci mərhələsində müəyyən irəliləyiş əldə olunarsa, Netanyahu ötən ilin noyabr ayında istefa verən keçmiş strateji planlaşdırma naziri Ron Dermeri növbəti danışıqlar raunduna göndərə bilər.

*Sadiq İSMAYILZADƏ*

# İraqın 6-cı Prezidenti...

## Nizar Amidi həm kürd blokları, həm də şiə və sünni siyasi dairələri arasında böyük etimada sahibdir

İraq özünün yeni prezidentini seçib. Aprelin 11-də ölkə parlamentində keçirilən səsvermədə Kürdüstan Vətənpərvərlər İttifaqının (PUK) rəsmi namizədi Nizar Amidi qalib gələrək İraqın 6-cı Prezidenti olub. 2003-cü ildən bəri formalaşmış siyasi ənənəyə sadiq qalan İraq parlamenti, dövlətin ən yüksək kürsüsünü bir daha kürd milliyyətindən olan təcrübəli bir dövlət xadiminə etibar etdi. Nizar Amidi sadəcə bir siyasətçi deyil, o, İraqın müasir dövlət quruculuğu prosesinin daxilindən yetişmiş, bütün siyasi prosesləri dərindən bilən və hər zaman "uzlaşma adamı" kimi tanınan bir fiqurdur.



qalmayıb. O, Cəlal Talabani tərəfindən əsası qoyulan Kürdüstan Vətənpərvərlər İttifaqına üzv olaraq, bölgənin gələcəyi naminə siyasi mübarizəyə qoşulub. Cəlal Talabaninin "Salam Sarayı"ndakı fəaliyyəti dövründə Amidi baş müşavir kimi bütün fəaliyyət mərhələlərində onun yanında olub. Yaxınları Amidini hər zaman Talabaninin "sirdaşı" (amin əsrar) kimi görüblər.

Prezidentlik ofisindəki birbaşa fəaliyyəti sayəsində Amidi federal hökumət ilə Kürdüstan regional hökuməti arasındakı münasibətlərin idarə olunmasında təcrü-

### Nizar Amidi kimdir?

Nizar Amidi 6 fevral 1968-ci ildə İraq Kürdüstan Regionunun Duhok vilayətində anadan olub. Təhsilini şimaldakı Ninova vilayətinin mərkəzi olan Mosul şəhərində alıb və Mosul Universitetinin mexanika mühəndisliyi fakültəsindən bakalavr dərəcəsi ilə məzun olub. Süleymaniyyədə, daha sonra Bağdadda yaşaması və işləməsi ona həm İraqın, həm də Kürdüstan Regionunun siyasi, institusional və sosial reallıqlarını praktiki şəkildə anlamaq imkanı qazandırıb. Amidi, təhsilə və elmə xüsusi önəm verən bir mühitdə böyüyüb. O, ali təhsilini mühəndislik ixtisası üzrə tamamlasa da, həyatının ilk illərində pedaqoji fəaliyyətlə məşğul olub. 1990-cı illərdə fizika müəllimi kimi fəaliyyət göstərən gənc Amidi, eyni zamanda İraqdakı siyasi proseslərdən kənarda

bə qazanıb, bu münasibətlərin konstitusion və siyasi mürəkkəbliklərini dərindən anlayaraq onların həllinə praktiki töhfələr verib. Amidi İraqda yaşayıb və "Baas Partiyası"nın hakimiyyəti dövründə ölkəni tərk edərək Avropa, Qərb, İran və ya ərəb ölkələrində mühacirət həyatı yaşayan müxalif qruplardan olmayıb. Digər kürd prezidentlərdən (Cəlal Talabani, Fuad Məsum, Bərham Saleh və Əbdüllətif Rəşid) fərqli olaraq, Amidi xarici ölkə vətəndaşlığı almayıb, yalnız İraq vətəndaşıdır.

PUK rəhbərliyindəki siyasi fəaliyyətinə, keçmiş prezident Cəlal Talabani ilə birbaşa işbirliyinə və 2 il ekologiya naziri vəzifəsində çalışmasına baxmayaraq, Amidi diqqət mərkəzindən uzaq qalıb. Son 20 ildə onun mediada görünməsinə nadir hallarda rast gəlinib.

### Seçkilərin birinci və ikinci turu...

Səsverməyə bir neçə gün qalmış Prezident Əbdüllətif Rəşid növbəti prezident seçkilərində iştirakdan imtina edib. Belə olan halda prezident postu uğrunda 16 namizəd mübarizə aparıb. Parlamentdə keçirilən iki mərhələli səsvermənin birinci turunda Amidi ən güclü rəqibi olan xarici işlər naziri Fuad Hüseyni, ikinci turda isə "Kürd İslam İttifaqı"nın namizədi Müsənna Əmini geridə qoyub. Seçkilərin ikinci turunda 249 deputatın səsvermədə iştirak etməsi və Nizar Amidinin 227 səs kimi mütləq çoxluqla qələbə qazanması onun həm kürd blokları, həm də ölkənin şiə və sünni siyasi dairələri arasında nə dərəcədə böyük etimada sahib olduğunun göstəricisidir.

Xatırladaq ki, 2003-cü ildən bəri İraq prezidentliyinə bir neçə şəxs rəhbərlik edib: Müvəqqəti Koalisiya Hakimiyyəti başa çatdıqdan sonra 2004-2005-ci illərdə bu vəzifəni müvəqqəti icra edən Qazi Məşəl Acil əl-Yavər, daha sonra 2005-2014-cü illərdə iki müddət vəzifədə qalan ilk seçilmiş Prezident Cəlal Talabani, ondan sonra 2018-ci ilə qədər vəzifəni icra edən Məhəmməd Fuad Məsum, daha sonra rəqibi Fuad Hüseynə qalib gələrək 2018-2022-ci illərdə rəhbərlik edən Bərham Saleh və nəhayət, 2022-ci ildən bəri siyasi ixtilaflar fonunda seçilən beşinci prezident Əbdüllətif Rəşid.

### Onun siyasi yüksəlişi...

Amidinin siyasi yüksəlişi onun İraqın paytaxtı Bağdadda partiyanın maraqlarını müdafiə etməsi ilə başlayıb. O, uzun illər PUK-un Bağdaddakı ofisinə rəhbərlik edib və bu müddət ərzində mərkəzi hökumətlə Ərbil arasında yaranan ən çətin düyünlərin açılmasında iştirak edib. Onun soyuqqanlılığı və diplomatik manevr qabiliyyəti qısa zamanda İraqın ali rəhbərliyinin diqqətini çəkib.

Nizar Amidini digər namizədlərdən fərqləndirən əsas cəhət onun dövlət aparatının işləmə mexanizmini mükəmməl bilməsidir. O, 2005-ci ildən bəri İraqın demək olar ki, bütün prezidentlərinin ən yaxın komandasında yer alıb. Belə ki, Amidi 2005-2008-ci illərdə İraqın ilk kürd Prezidenti Cəlal Talabaninin şəxsi katibi, 2008-2014-cü illərdə isə Talabani administrasiyasında Prezident Aparatının rəhbəri olub. O, 2014-2018-ci illərdə isə Prezident Fuad Məsumun Administrasiya rəhbəri vəzifəsini daşıyıb. Prezidentlər Bərhəm Salehin və Əbdüllətif Rəşidin hakimiyyəti zamanı da dövlət idarəçiliyində mühüm strateji vəzifələr daşıyan Amidi Məhəmməd Şiya əl-Sudani hökumətində İraqın ekologiya naziri olub. Nizar Amidi nazir postunda olduğu müddətdə İraqın iqlim dəyişikliyi ilə mübarizəsi və su ehtiyatlarının idarə olunması kimi regional və qlobal əhəmiyyətli məsələlərdə beynəlxalq tərəfdaşlarla uğurlu əməkdaşlıq qurub. 2024-cü ilin oktyabrında isə o, öz partiyasının rəsmi prezident namizədi kimi irəli sürüldüyü üçün nazir vəzifəsindən istefa verərək bütün diqqətini siyasi mübarizəyə yönəldib.

### Amidi regionda sülhün təmin olunmasına çalışacaq

Nizar Amidinin prezident seçilməsi, həm də İraq daxilindəki kürd partiyaları - Kürdüstan Demokrat Partiyası və Kürdüstan Vətənpərvərlər İttifaqı arasında uzun müddətdir davam edən rəqabətin bir növ konsensusla nəticələnməsi kimi də yozulur. Kürd, ərəb və ingilis dillərini akademik səviyyədə bilən Amidinin əsas missiyası İraqın daxili sabitliyini qorumaq, ölkənin beynəlxalq nüfuzunu artırmaq və xüsusilə ABŞ-İran gərginliyinin kölgəsində qalan Bağdadın balanslı xarici siyasətini davam etdirmək olacaq. Onun dövründə İraqın regional güc mərkəzinə çevrilməsi və iqtisadi islahatların sürətləndirilməsi prioritet istiqamətlər kimi qeyd olunur. Nizar Amidi artıq "kölgə"dən çıxaraq, ölkənin rəsmi birinci şəxsi kimi İraqın gələcək taleyini müəyyən edəcək qərarların müəllifi olmaq istəyir.

Prezident vəzifəsinə başladıqdan sonra etdiyi ilk çıxışında Amidi regionda müharibənin dayandırılması səylərini dəstəklədiyini və İraq təhlükəsizlik qüvvələrini hədəf alan hücumları pislədiyini bəyan edib. O bildirib: "Ölkəmiz mürəkkəb problemlərlə üzüzədir və böhranların fəsadlarına qarşı mübarizə aparmalıyıq. Ölkəmizin üzləşdiyi təhlükələr fonunda çətinliklərin miqyasını qiymətləndiririm, bu da bizdən qərarlar qəbul edərkən müdriklik və məsuliyyət tələb edir". İraqın yeni Prezidenti, həmçinin sülhə nail olmağa çalışacağını, müxtəlif komponentlərin maraqlarının müdafiəçisi və himayəçisi olacağını, hər kəs arasında baxış bucaqlarını yaxınlaşdıracağını bəyan edib.

*N.BAYRAMLI*

# Yuvasını yandıran vulkan

## İvan Qonçarovun "Uçurum" romanı haqqında

*əvvəli ötən saylarımızda*

Fəqət Qonçarov həmkarının tapındığı fəlsəfi ideala tamam başqa yöndən yaxınlaşır. Əgər Bazarov öz həqiqətini, mənəvi kamilliyini taleyin buxovlarını qırmaqla, çılğın bir epikürçü kimi yasaqların, qorxuların üstünə getməklə tapırsa, Qonçarovun qəlbinə yaxın qəhrəmanlar haqqa da, dinclıyə də, müdrikliyə də təmkinli bir stoik kimi ehtirasları cilovlamaq, taleyə boyun əymək, təbiətlə həmahəng yaşamaq sayəsində çatırlar. Bu iki "düşmən" (əsas da ideoloji düşmən!) yazıçıya xas dünyagörüşlərin müqayisəsi bizi yenidən klassik Şərq ədəbiyyatının rindü-zahid qarşıdurmasına qaytarır. Hər iki tərəf insana dinclik, rahatlıq arzulayır, sadəcə, hədəflər, metodlar başqadır. Qonçarov antik dövrdən üzübəri yol gələn bir zahid, dövrünün Buddası kimi ehtirasları hədəf götürür, ruhani müvazinəti, zehni dincliyi intellektual asketizmdə tapır. "Uçurum" romanı məhz dünyəvi həvəslərin bihudəliyi, ehtirasların dağıdıcı gücü haqdadır - romanın həm adındakı, həm də özündəki uçurum insanı fəlakətə aparan bu müdhiş gücün rəmzidir. Bu kitabın elə bir səhifəsi tapılmaz ki, orada "ehtiras" sözü ən azı bir dəfə təkrarlanmasın. Bu qan-qırmızı kəlmə romanın sətirləri arasında yüzlərlə, bəlkə minlərlə yerdə yanıb-sönür, sanki bununla müəllif oxucusuna hər addımda nə qədər böyük bir təhlükəylə üz-üzə qala biləcəyini xatırlatmaq istəyir.

***

Şair təbiətli, təmiz ürəkli Boris Pavloviç Rayski, soyadından göründüyü kimi, ruhuna cənnət axtarır. Məsum, müti Nataşanın susqun sədaqəti, Marfanın dinc, təlatümsüz cənnəti onu darıxdırır, ona elə gəlir ki, xoşbəxtlik duyğular fırtınasında, ehtirasların coşub-daşmasındadır. Fəqət onun mədh elədiyi, vəsf elədiyi ehtiras heç kimə bəxtəvərlik gətirmir, tam tərsinə, hamını fəlakətə sürükləyir. Ehtiras onun Peterburqdakı qohumu Sofyanı rüsvayçılıq dirəyinə bağlayır, Veranı intiharın astanasınacan dartıb aparır, arvadının atıb qaçdığı Kozlovu tragikomik duruma salır, karikaturaya bənzər dul xanım Kritskayanı gülünc vəziyyətə qoyur, Marinanı xəyanətə, Savelini qısqanclığa, arvadını qətlə yetirməyə təhrik eləyir... Bunca fəsadlar verən ehtiras incə qəlbli incəsənət aşiqinə xoşbəxtliyi hansı əliylə, hansı qabda gətirəcək? Zatən onun yaxıcı, yıxıcı, dağıdıcı təbiəti; namərd, riyakar, hiyləgər xisləti var - tufan, ildırım, zəlzələ kimi; canavar, çaqqal, tülkü kimi. Rayski sevgini yalnız ehtiras qılafında təsəvvür elədiyindən, ikisinin arasına hava yeri qoymadığından məsələnin birmənalı, doğru həllini də tapa bilmir, ehtiras onu gah vəcdə gətirir, gah da qorxudur. O öz xoşbəxtliyini həvəslər, ehtiraslar laboratoriyasından aralanıb yaşanmış günləri qəlbinin güzgüsündə yenidən seyrə dalanda, olmuşları ruhunun süzgəcindən keçirib beynindəki taxçalara düzəndə, yeni bu kitabı yazanda - ehtirasdan ehtirassız bir halda danışanda tapacaq.

Mark Voloxov Rayskinin antipodudur. Bazarovun qan qardaşı olsa da, ona rəğbət bəsləmək, can yandırmaq çətindir. "Yeni nəslin" nümayəndəsi, nihilist, anarxist Voloxovu müəllifin sevmədiyi çətin sezilmir, hətta o dərəcədə ki, tənqidçilər bəzən yazıçını ona qərəzli yanaşdığına görə qınayırdılar. Müəllifin sevmədiyi personajı Vera kimi xarizmatik gözəl niyə bəyənib - burası da bilinmir. Mark Avropa siyasi anarxizminin banilərindən sayılan Prudonun pərəstişkarıdır. Tatyana Berejkovanın alma bağında Vera onu oğurluq başında yaxalayanda da Prudonun yardımıyla vəziyyətdən çıxır: "Xüsusi mülkiyyət - oğurluqdur". Voloxov sübuta yetirməyə çalışır ki, almalar əslində onundur, oğru isə bağ yiyəsidir. Vera onun dərdiyi almaların halallığını verəndə Mark pərişan olub meyvələri qıza qaytarır. O, canlıcansız bütün varlığın, cümlə məxluqatın üzərində özünün yiyəlik, ağalıq hüququnu tanıyır, bu hüququ başqalarına da tanıtmaq istəyir. Sədəqə dilənmək, pay almaq onluq deyil, gözü düşəni, meyli çəkəni kimsə ona könüllü bağışlayanda ürəyinə yatmır - onunku oğurlamaq, çalıb-çapmaq, talamaqdır. Voloxov adət-ənənə, qoruqqaytaq, qanun-qayda tanımır, özünü qədim dünyanın ilk anarxistlərindən, sinizmin atalarından olan Diogen kimi aparmağa çalışır (kitabda antik filosofun adı dəfələrlə hallanır), hətta Markın Leontinin qapısındakı arabada bükülüb yatdığını görən Rayski Diogeni yamsıladığını onun üzünə vurur. Universitetdən qovulmuş bu nihilist üçün dünyada heç bir avtoritet, müqəddəs heç nə yoxdur. Nikahın əleyhinə çıxan Mark təbiətdə olduğu kimi azad sevgi tərəfdarıdır - sevəndə birləş, sevməyəndə qop. Ehtirasın qarşısına bənd vurmaq təbiətə qarşı çıxmaqdır. Fədakarlıq, borc, sədaqət kimi anlayışlar, onun fikrincə, insan xislətinə yaddır, yalan, saxtadır. Bir yaxşı cəhəti var ki, Voloxov yalan danışmır, nə düşünürsə, onu deyir, ona kölə sədaqətiylə bağlanmış məsum Veranı yalan vədlərlə aldatmır, qıza əbədi məhəbbət vədi vermir.

Ailəyə, sevgiyə, ənənəyə münasibətdə Veranın düşündükləri Markın dediklərinə yaxın da gəlmir. Ehtirası onu Voloxovun yırtıcı ağuşuna sürükləyir, ağlı isə bunun fəlakət olduğunu pıçıldayır. Turgenevin Asyası kimi Veraya da ideal qəhrəman lazımdır, Asyadan fərqli olaraq Vera özünü idealına qurban verməyə də hazırdır, amma neyləyəsən ki, onun bütü qurban qəbul eləmir. Vera nənənin dizinin qırağında, onun tərbiyəsiylə böyüyüb, onun aldığı tərbiyənin gözlüyündən baxanda Voloxov nəinki büt, ən tərbiyəsiz adamdır. İnsafən Mark özü də büt olmağa iddialı deyil.

Özündə güc tapıb Markdan qopanda qısnanmış ehtirasın fəsadı, üstəgəl suç duyğusu Veranı xəstə salır, qız uzun müddət həyata qayıda bilmir. Xəstəlik nənəbalanı bir az da doğmalaşdırır, nənə nəvəsinin günahlarını suya çəkir. Bir vaxt Tatyana Markovna özü də belə bir günahdan keçmişdi; fəqət bataqlıqdan çıxıb silkinəndən, kirini-pasağını saf suya axıdandan sonra müdrikləşdi, ailəsi-uşağı olmadısa da, bir rahibə səbriylə nəsil ocağının keşiyini çəkdi, nəvələrini böyütdü, valideynlərinin mirasını onlara salamat çatdırdı. Nənənin köhnə tikilinin yanında ucaltdığı təzə ev - evdən də çox məbəddir: xoşbəxtlik, bərəkət, dinclik məbədi.

***

Marfanı ərə verəndən sonra Tatyana Markovna Verayla bir dam altında qalır. Hərdəmxəyal Boris ötən yay onun tapdığı qızı bəyənməmişdi, indi Allah bilir Avropanın hansı şəhərində dolaşır, kimlərə uyub. Artıq Veranın taleyi haqda düşünmək vaxtı çatıb, Tuşin kimi layiqli namizəd də var. Şəhərdə söz gəzir ki, üzümüzə gələn yay onların toyu olacaq. Fəqət mən bu şayiələrə inanmıram, Vera da nənəsi kimi ərə getməyəcək: günah hissi, borc duyğusu onun canında ehtirasın bir daha baş qaldırmasına yol verməyəcək. Vera estafeti nənədən alıb nəsil ocaq qoruyanına, ata-baba yurdunun könüllü qarovulçusuna, cürbəcür xətdən gələn nəvələrinin hamisinə çevriləcək.

Nənənin ömrü nəvədə yenidən yaşanır, dünyada heç nə dəyişmir, tarix təkrar olunur. Nənəsi yaşa çatanda indi Vatutin tez-tez onlara gəldiyi kimi Tuşin də vaxtaşırı Veranı ziyarət eləyəcək, onun məclislərinin başında oturacaq. Qocalar hərdənhərdən yanıb getmiş istəklərin külünü qurdalayacaqlar.

Rayskinin kitabları buralarda əldənələ keçəcək. Onlar belə böyük bir yazıçını tanıdıqlarına, hətta ona doğma olduqlarına görə öyünəcəklər.

O kitabların müəllifi də ömrü boyu subay qalacaq. Ayaq tutsa, günün birində Boris Pavloviç ata yurduna ziyarətə gələcək. Ancaq Veranı görəndə əvvəlkitək həyəcan keçirməyəcək. Bu gəlişində onun uzun illər boyunca mükəmməl təlim görmüş atı kimsənin çal-çəpərini basmayacaq, kimsənin bağçasına girməyəcək, kimsənin tövləsinə soxulmayacaq. Bu dəfə o, hər kəsə, hər nəsnəyə ürəyinin şəffaf köşkündən, beyninin sükut mərkəzindən baxacaq...

Çünki ehtiras dediyin yanıb-yanıb sönən vulkan kimidir - nə odundan fayda var, nə külündən. Eləcə öz yuvasını yandırar.



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Mürəkkəb taleli şəxsiyyət

## Nəriman Nərimanov haqqında həqiqətlər...

*Yeganə BAYRAMOVA*



Azərbaycan tarixində elə simalar var ki, onların fəaliyyəti təkcə yaşadıqları dövrü deyil, sonrakı nəsillərin düşüncə tərzini də formalaşdırır. Nəriman Nərimanov məhz belə şəxsiyyətlərdən biridir. Bu gün böyük ictimai-siyasi xadim, yazıçı-publisist, həkim Nəriman Nərimanovun doğum günüdür. O, 1870-ci ilin 14 aprelində Tiflisdə, tacir Kərbalayi Nəcəfin ailəsində dünyaya göz açıb. Onun haqqında bu gün müxtəlif fikirlər səslənir. Yerli-yersiz bu tarixi şəxsiyyətə hücumlar olur. Lakin bütün deyilənlərə rəğmən dəyişməz bir həqiqət var: Nəriman Nərimanov Azərbaycanı canından çox sevib.

Onun adı Azərbaycanın ictimai fikir və mədəniyyət tarixində mühüm yerə malikdir. O bir tərəfdən görkəmli dövlət və fəal siyasi xadim, digər tərəfdən ədəbiyyat tarixində görkəmli nasir, böyük dramaturq, eləcə də ictimai fikir tarixində fəal milli ziyalı və publisist kimi tanınıb.

O, xalqının üzləşdiyi çətinliklərdən çıxış yolu axtarır. Hələ gənc yaşlarında Bakıda kitabxana açır. Onun arzusu azərbaycanlıların maariflənməsi idi. Nəriman Nərimanov bu istiqamətdə geniş fəaliyyət göstərib.

Azərbaycanın müsəlman şərqində nail olduğu bir çox ilklər, o cümlədən ilk konstitusiya Nəriman Nərimanovun adıyla bağlıdır. Nərimanov hakimiyyəti dövründə Azərbaycan xalqının adət və ənənələrinə dərin hörmət verilmiş, bütün dini və ənənəvi bayramlar rəsmi olaraq qeyri-iş günü hesab olunmuşdur.

O, siyasətçidən əlavə bir maarifpərvər və dramaturq-yazıçı kimi Azərbaycan tarixində mühüm rol oynayıb, 1894-cü ildə Bakıda ilk qiraətxananı açıb. Ədəbiyyatçı kimi Azərbaycan milli romanının ("Bahadır və Sona") və ilk tarixi faciənin ("Nadir şah") banisidir.

1920-ci ildə Azərbaycanda sovet hökumətinin qurulmasında yaxından iştirak edən Nəriman Nərimanov həm də onun rəhbərlərindən biri idi.

Mətbuata həvəs oyatmaq, qəzet, jurnal və kitab oxumaq vərdişini təlqin etmək baxımından, bu təşəbbüsün qiyməti əvəzsizdir. Qiraətxana Rusiya və xaricdən 27 adda qəzet alırdı. Onun müxtəlif millətlərdən olan oxucularının sayı gündən-günə, ildən-ilə artırdı. Məsələn, qiraətxananın fəaliyyətə başladığı gündən keçən bir aya yaxın müddətdə qeydə alınmış 710 oxucudan 292-si azərbaycanlı idi. 1897-ci ildə bu rəqəm artıq 8619 olmuşdu.

N.Nərimanovun təşkil və rəhbərlik etdiyi milli qiraətxananın səsi-sorağı Rusiyaya, bir sıra Yaxın və Orta Şərq ölkələrinə gedib çıxmışdı. Bağçasarayda nəşr olunan "Tərcüman" qəzeti 1895-ci il 19 fevral tarixli nömrəsində "Bakı qiraətxanası" sərlövhəli xəbərdə yazırdı: "Nəriman Nərimanov gözəl yazıçı idi. O, "Nadir şah" və digər əsərlərin müəllifidir. Xarici dillərdə yazılan bir çox əsərlərdən Azərbaycan dilinə tərcümələr edib, həm də dərsliklər yazıb. Nəriman Nərimanovun öz xalqı üçün etdikləri Azərbaycan rəhbərliyinə soxulmuş erməni millətçilərinin və digər düşmənlərin xoşuna gəlməyib. Onlar Nəriman Nərimanovu ləkələmək, onu nüfuzdan salaraq aradan götürməyə çalışıblar. Millətini çox sevən Nəriman Nərimanovu "millətçi" adlandırıb və onu Azərbaycandan uzaqlaşdırıblar".

Getdikcə Nəriman Nərimanov sovet hökumətinin çar Rusiyasının varisi olduğunu aydın dərk edib.

Nərimanov 19 mart 1925-ci ildə vaxtsız, müəmmalı şəraitdə Moskvada hökumət nümayəndələri ilə görüşdən bir neçə saat sonra dünyasını dəyişib və Qızıl Meydanda Kreml divarları yanında dəfn olunub. O, ölümünə bir az qalmış oğlu Nəcəfə yazıb: "Əziz oğlum Nəcəf. Əgər mənə yaşamaq qismət olsa, onda mən səni elə tərbiyə etməyə çalışacağam ki, insanlığa xeyir gətirəsən. Əgər mənə ölüm qismət olsa, onda mən səndən xahiş edəcəyəm ki, sən insanlara heç olmazsa, mənim, sənin atanın etdiyi qədər edəsən".

Ölümündən sonra da ermənilər tərəfindən Nəriman Nərimanova qarşı böhtan kampaniyası davam etdirilib. Onun yubileyinin keçirilməsinə imkan verməyiblər. Nəhayət, Azərbaycana rəhbərlik edən Heydər Əliyev bütün bu manevrləri aradan qaldıraraq Nəriman Nərimanovun 100 illiyinin təntənəli şəkildə keçirilməsinə nail olub.

Azərbaycan xalqı Nəriman Nərimanovun xatirəsini əbədiləşdirib. Bakı şəhərinin rayonlarından biri onun adını daşıyır. Bakıda Nəriman Nərimanovun böyük abidəsi ucalır. Paytaxtımızın ən böyük prospektlərindən birinə Nəriman Nərimanovun adı verilib. Bundan başqa, Bakıda N.Nərimanovun xatirə muzeyi fəaliyyət göstərir.

# 114 il öncə okeanın dibinə qərq olan gəmi...

## "Titanik"i xilas etmək mümkün idi?

Titanik dövrünün texnologiya möcüzəsi sayılırdı. O qədər böyük və möhkəm idi ki, "Allah da bu gəmini batıra bilməz" deyə "Titanik" gəmisinin ekipaj üzvü nigaran sərnişini arxayın etdi. Ancaq bir neçə gün sonra, aprelin 14-dən 15-ə keçən gecə dünyanın ən iri okean layneri və "White Star Line" şirkətinin tacı aysberqlə toqquşaraq Şimali Atlantikin 3 kilometr dərinliyinə qərq oldu. Müasir nəslin əksər üzvləri bu haqda məlumatı Ceyms Kameronun rejissorluq etdiyi epik "Titanik" filmindən alıblar. Üstündən 114 il keçməsinə baxmayaraq, bu gəmi qəzası insanları riqqətə gətirməkdə davam edir.

"Titanik" gəmisinin batması dəniz sərnişin daşımaları tarixində ən böyük faciələrdən biri hesab edilir. 1912-ci ildə gəminin Atlantik okeanda aysberqlə toqquşması nəticəsində göyərtədə olan 2224 sərnişin və ekipaj üzvündən 1513-ü həlak olub. "Titanik", Britaniyanın öz dövrünün ən nəhəng sərnişin gəmisi sayılırdı. 66 min ton ağırlığında olan gəminin inşasına 1909-cu il martın 31-də Şimali İrlandiyanın paytaxtı Belfastda başlanmış, 1911-ci il mayın 31-də isə gəmi istismara verilmişdi.

Gəmi 1912-ci il aprelin 10-da ilk və son səfərinə yola düşdü. Aprelin 14-ü saat 23:40-da gəmi aysberqlə toqquşdu və 2 saat 40 dəqiqədən sonra batdı.

Özü-özlüyündə "Titanik"in batması qeyri-adi faciə deyildi. Tarixdə çox gəmilər batıb. Elə onlardan biri 3 il sonra Birinci Dünya müharibəsi zamanı alman sualtı qayığı tərəfindən batırılmış "Lusitania" gəmisinin hekayəsidir...

Bəs "Lusitania"nı "Titanik"dən fərqləndirən nə idi? Gəminin adına diqqət yetirək: Qədim yunan əsatirində Titanlar Allaha qarşı üsyan qaldırmış və sonda məğlub olmuş super məxluq irqi sayılırlar. "Lusitania"nın batması cəmi 18 dəqiqə vaxt aparmışdı. "Titanik" isə aysberqə toqquşandan 2 saat 40 dəqiqə sonra sulara qərq olmuşdu. Bu vaxt bir kinonun süjet xətti üçün, saysız hesabsız məhəbbət, fədakarlıq hekayələri üçün bəs edir. "Lusitania"dan fərqli olaraq, Transatlantik səyahət "Titanik"in ilk səyahəti idi. Gəmiçilik zavodundan yenicə çıxmış bu gəmidə hər şey təzə idi. Mühəndislər son model texnologiyaya əsaslanan "Titanik"in suda qalaya çevrilməsi üçün əllərindən gələni əsirgəməmişdilər. Gəmi az qala istənilən ssenariyə qarşı sığorta olunmuşdu, amma...



**2224 sərnişinə cəmi 22 xilasetmə qayığı**

Amma bütün bunlarla yanaşı, "Titanik" özündə ölümcül səhvləri də əks etdirirdi. Gəminin xarici görünüşünün gözəlliyini korlayar deyə təhlükəsizlik qayıqları az sayda qoyulmuşdu. 2 mindən artıq sərnişinə cəmi 22 xilasedici qayıq nəzərdə tutulmuşdu. Bəlkə də bu ondan irəli gəlirdi ki, "Titanik"də maksimum təhlükəsizlik tədbirləri görülmüş, hər şey nəzərə alınmışdı. Nəhəng gəmini kiçik bir sükan idarə edirdi, təbii olaraq bu da belə böyük bir gəminin manevr qabiliyyətini məhdudlaşdırırdı.

Bundan başqa, gəmi nədənsə, xəbərdarlıq və kəşfiyyat avadanlıqları ilə zəif təchiz olunmuşdu. Sərnişinlər və gəmi heyəti bu möhtəşəm laynerin qəzaya uğramasının mümkünlüyünə inanmırdılar. Onların buna haqqı var idi. Gəmini təcrübəli dəniz mütəxəssisi- kapitan Edvard Smit idarə edirdi və ona xüsusi kurs keçmiş bacarıqlı ekipaj üzvləri kömək edirdilər. Həm də "Titanik" çox möhkəm və etibarlı düzəldilmişdi. Bəli, sərnişinlərin kiçik üzən şəhəri - "Titanik" müasirlik, rahatlıq və təhlükəsizlik simvolu idi...

**Milyonçuların ekspresi**

Hələ reysə çıxmazdan əvvəl gəmini "milyonçuların ekspresi" adlandırmışdılar. Həqiqətən də özünün ilk və son səfərində gəminin göyərtəsində xeyli zəngin adamlar - neft, kömür, dəmiryol və polad kralları toplaşmışdı. Bu adamlar özləri ilə çoxlu qızıl, brilyant və digər daş-qaşlar, həmçinin qiymətli sənət əsərləri aparırdılar.

**Ölüm anında sinfi ayrı-seçkilik**

"Titanik" yalnız 2 saat davam gətirə bildi və sonra ortadan iki yerə ayrıldı. Gəmidə qalanlar özlərini okeanın soyuq sularına atdılar. Okeanın qaranlıq səması altındakı soyuq suda sarsıdıcı bir mənzərə yaranmışdı. Nəhayət, gecə saat 1 radələrində dünyanın ən nəhəng okean layneri, "Batmayan gəmi" adlandırılan "Titanik" yüzlərlə sərnişini ilə birlikdə okeanın dibinə qərq oldu.

Atlantik okeanının soyuq suları üzərinə səpələnmiş yüzlərlə insan isə hələ də ölümlə çarpışmaqda idi. Bu, yaşamaq uğrunda aparılan son savaş idi və bu savaşdan çox az adam qalib çıxdı. Səhər saat 9:30-da "Karpatiya" gəmisi qəza yerinə çatdı və bu müdhiş faciənin şahidləri olan 711 sərnişini götürərək, Nyu-Yorka çatdırdı.

**Sirr pərdəsi qalxır**

"Titanik"in batmasından bəri onun haqqında çox yazılıb. Son illər isə daha bir mülahizə meydana çıxıb. Həmin versiyaya görə, guya bu gəmini hazırlayan şirkət həmin vaxt müflis olmaq həddində imiş və bundan yaxa qurtarmaq üçün "Titanik"i elə birinci səfərindəcə məhv etmək haqqında çox məxfi şəkildə qərar qəbul edib. Çünki "Titanik" çox böyük məbləğə sığorta edilmişdi...

**Fişənglər düz atılsaydı...**

"Titanik" batarkən son ümid olaraq uzaqdakı gəmilərin diqqətini çəkə bilmək üçün dalbadal havaya fişənglər atılıb. Hava fişənglərini görən "Kaliforniya" adlı gəminin heyəti atılan fişənglərin ağ olması səbəbindən gəmidə əyləncə olduğunu təxmin ediblər. Çünki o zaman gəmilərin fişəng rənglərinə görə bir qaydaları vardı. Ağ rəng əyləncə, qırmızı rəng isə təhlükə deməkdir idi. "Titanik" səfərdən öncə kifayət qədər qırmızı fişənglə təmin edilmişdi, amma buna baxmayaraq, havaya ağ fişənglər atılır.

"Titanik"dən təxminən 70 km uzaqlıqda olan "Mount Temple" gəmisi kömək çağırışını duyub və ona verilən koordinatlara doğru sürətlə hərəkət edib. Ancaq koordinatlar səhv verildiyindən "Mount Temple", "Titanik"ə 12 km uzaq olan başqa bir bölgəyə gedib çıxıb.

Gəminin fitləri o zamana qədər ən böyük və ən gurultulu fitlər idi. Bu fitləri dənizdə 11 mil uzaqlıqdan belə duymaq mümkün idi. Deməli, bir qədər uzaq olan gəmilər də bu siqnalı duymalı idi. Amma araşdırmalar zamanı məlum oldu ki, həmin vaxt okeanda olan və "Titanik"ə 11 mildən də az məsafə yaxınlığında olan gəmilər nədənsə fit səsini duymayıblar.

Kapitan Smit ilə gəminin dizayneri "Titanik"lə batmağı seçmişdi. Ancaq bütün aysberq xəbərdarlıqlarına baxmayaraq, gəminin son sürətdə Amerikaya getməsini tələb edən "White Star Line" dənizçilik şirkətinin idarəçisi Brus İsmay, qadın və uşaqların mindiyi bir avarlı qayığa minib və uzaqdan "Titanik"in batmasını izləyirmiş...

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5227
Sifariş: 491
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova